**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏRDAROV TAHİR ƏLİMİRAN OĞLU**

# AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARINDA SOSİAL İNFRASTRUKTURLARIN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**5308.01-Ümumi iqtisadiyyat**

**iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün**
**təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**B A K I – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Rəsmi opponentlər:** *iqtisad elmləri doktoru, professor*
**Vahid Tapdıq oğlu Novruzov**

*iqtisad elmləri doktoru, professor*
**Gəncəli Əziz oğlu Gənciyev**

*iqtisad elmləri doktoru*
**Akif Həmzə oğlu Vəliyev**

**Aparıcı təşkilat:** **Naxçıvan Dövlət Universitetinin "İqtisadiyyat" kafedrası**

Müdafiə «____» _____________ 2017-ci ildə saat _____-da Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.018 Birləşdirilmiş Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küç.23, Bakı Dövlət Universiteti

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «_____» __________________ 2017-ci il tarixində göndərilmişdir.

**FD 02.018Birləşdirilmiş**
**Dissertasiya Şurasının**
**Elmi katibi, i.ü.f.d.** **H.S.Şamilova**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Bazar münasibətləri şəraitində və qloballaşma elementlərinin intensivləşdiyi hazırkı dövrdə regionların sosial-iqtisadi inkişafının və bu proseslərin tərkib hissəsi olan sosial infrastrukturun davamlı inkişafının təmin edilməsi, bunlarla bağlı fəaliyyət mexanizmlərinin dövrün sosial-iqtisadi inkişaf səviyyəsinə adekvat olaraq tənzimlənməsi və təkmilləşdirilməsi vacib şərtlər kimi çıxış edir. Cəmiyyətdə formalaşdırılan səmərəli infrastrukturlar, bütövlükdə, iqtisadiyyatın normal inkişafına, ictimai istehsalın sürət və səmərəliliyinə müsbət təsir göstərir. Buna görə də, cəmiyyətin müasir və gələcək inkişafında sosial və iqtisadi infrastrukturların yerini, rolunu və onların qarşılıqlı əlaqələrini hərtərəfli tədqiq etmək mühüm elmi və praktiki əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, sosial infrastruktur sahələri, o cümlədən onun tərkib hissəsi olan mikroinfrastrukturlar bir-biri ilə funksional asılılıq şəraitində formalaşaraq fəaliyyət göstərirlər. Müasir şəraitdə iqtisadiyyatın səmərəliliyinin getdikcə yüksəldilməsi problemləri, sosial infrastruktur sahələrinin kompleks və intensiv inkişafını bir vəzifə olaraq qarşıya qoyur. Keçmiş SSRI dövründə mərkəzləşdirilmiş planlaşdırma və idarəetmə sistemindən, azad bazar münasibətlərinə keçmiş Azərbaycan Respublikasında müstəqillik illərində iqtisadiyyatın əsas sahələrində dinamik inkişafa nail olmaq üçün mövcud qanunvericiliyin təkmilləşdirilməsi və əsasən, ölkə regionlarında sosial-iqtisadi problemlərin həllinin sürətləndirilməsi, o cümlədən, sosial infrastruktur şəbəkəsinin genişləndirilməsi, bu sahələrin fəaliyyətinin dövlət tənzimlənməsi üçün xeyli iş görülmüşdür. Bir çox dövlət proqramlarına əsasən ölkənin regionları və inzibati rayonlarının sosial-iqtisadi inkişafına dair tədbirlər həyata keçirilməkdədir.

Aparılmış təhlillər onu göstərir ki, son on il ərzində sosial-iqtisadi maliyyə infrastrukturlarının modernləşdirilməsi nəticəsində milli iqtisadiyyatda dayanıqlı inkişafa nail olunmuşdur. 2004-2015-ci illər ərzində ölkədə orta hesabla 10,6 faiz illik iqtisadi artım qeydə alınmışdır. ÜDM-in həcmi bu dövr ərzində 7,6 dəfə artmış, adambaşına ÜDM-in həcmində 6,5 dəfə artım müşahidə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Yol Xəritsəi" nəzərdə tutulan istiqamətlər üzrə strateji məqsəd və hədəfləri, nəzərdə tutulan tədbirlərin qiymətləndirmə və maliyyələşdirmə mexanizmlərini müəyyən edir.

Strateji Yol Xəritəsində davamlı iqtisadi inkişafa nail olmaq üçün aşağıdakı əsas strateji hədəflər təyin olunmuşdur:

- Fiskal dayanıqlığın artırılması və davamlı monetar siyasətin qəbul edilməsi;
- Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların reallaşdırılması;
- İnsan kapitalının inkişaf etdirilməsi;
- Əlverişli biznes mühitinin inkişafı.

Nəzərdə tutulan 4 strateji hədəfin icrası milli iqtisadiyyatın mərkəz və regionlar üzrə sosial infrastruktur sahələrinin də inkişafına təkan verəcəkdir.

Strateji Yol Xəritəsində 2020-ci ilə kimi mövcud reallıqlar, 2025-ci ilə kimi olan dövrə dair uzunmüddətli baxış, 2015-ci ildən sonrakı dövr üçün isə hədəf baxış təsbit olunmuşdur.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, bütövlükdə ölkə üzrə sabit və davamlı iqtisadi inkişafın təmin edilməsinə baxmayaraq, regionların sosial-iqtisadi inkişafında qeyri-mütənasiblik müşahidə edilir. Ölkə regionlarında resurs potensialından tam və səmərəli istifadə olunmaması diqqət çəkir. Digər tərəfdən, ölkəmizdə region iqtisadiyyatı, onun əsas tərkib hissəsi olan sosial infrastruktur sahələri, xüsusilə də bu problemin regional aspektdən nəzəri və praktiki məsələləri kifayət qədər tədqiq edilməmişdir. Regionların sosial-iqtisadi, o cümlədən, sosial infrastuktur sahələrinin kompleks inkişafı prioritetlərini nəzərə almadan, ümumilikdə, milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi qeyri-mümkündür. Belə ki, ölkədə milli iqtisadiyyatın formalaşması və inkişafı ancaq ilkin iqtisadi struktur baxımından deyil, həm də regionlar çərçivəsində balanslaşdırılmış, sosial-iqtisadi inkişafa nail olmagı bir vəzifə olaraq qarşıya qoyur. Bazar iqtisadiyyatı şəraitində ölkənin sosial-iqtisadi inkişafı prosesləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələ ictimai həyatın bütün tərəflərinin optimal inkişafı, bazar iqtisadiyyatının üstünlükləri ilə elmi-texniki tərəqqinin, yeni texnologiyanın nailiyyətlərinin üzvi surətdə əlaqələndirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, əhalinin maddi-mədəni həyat səviyyəsinin yüksəldilməsi ilə uygunlaşdırılmalıdır. Bunun üçün, ölkə regionlarında mövcud sosial infrastruktur sahələrinin resurs potensialından tam və səmərəli istifadəyə nail olmaq lazımdır. Müasir dövrdə bu mühüm problemlər, ərazi xüsusiyyətlərinə, tarixi milli ənənələrə tam uyğun olaraq kompleks qaydada öz həllini tapmalıdır. Ölkə regionlarında sosial infrastruktur sahələrinin bərpası, müasir bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq forma-

laşdırılması, inkişafı, bu sahədə elmi-tədqiqat işlərinin daha da genişləndirilməsini tələb edir. Regionların sosial-iqtisadi inkişafı kompleksliliyi məsələləri nəzərə alınmadan, sosial infrastruktur şəbəkəsinin əsas müəssisələri iri şəhərlərdə yerləşdirilmişdir. Bununla belə, iri sənaye mərkəzlərindəki sosial infrastruktur sahələri də, xüsusilə məktəbəqədər təlim-tərbiyə müəssisələri, kommunal-məişət xidmət sahələri, səhiyyə və s. zəif inkişaf etdirilmiş, bu sahələrdə göstərilən sosial xidmətlərin səviyyəsi əhalinin tələbatını tam ödəmir. Regionlarda sosial infrastruktur sahələrinin zəif inkişafı diqqət çəkir və həmin problemlərin həllinin sürətləndirilməsi zərurəti ortaya çıxmışdır. Bununla yanaşı, respublikanın region və regionlardaxili rayonlarında sosial infrastruktur sahələrinin mövcud obyektləri belə, ərazilər üzrə səmərəli yerləşdirilməmişdir. Bu baxımdan müxtəlif mülkiyyət və təsərrüfatçılıq şəraitində sosial infrastruktur sahələrinin formalaşması və inkişafının dövlət tərəfindən tənzimlənməsi problemlərinin fundamental tədqiqi mühüm elmi və praktiki əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, bazar iqtisadiyyatı şəraitində sosial infrastruktur sahələri müxtəlif mülkiyyətçilik şəraitində fəaliyyət göstərir, onda problemin kompleks tədqiqinin aktuallığı bir daha artmış olur. Qloballaşma və müasir bazar iqtisadiyyatı şəraitində sosial infrastukturun regional inkişafını şərtləndirən amillərin öyrənilməsi, sosial infrastruktur müəssisələrinin istismara verilməsinin əsaslandırılması, bu proseslərin idarə edilməsi üsullarının optimallaşdırılması, yerli idarəetmə orqanlarının fəaliyyətlərinin səmərəliliyinin artırılması, ümumilikdə sosial infrastukturun sistemli və effektiv dövlət mexanizmləri vasitəsi ilə tənzimlənməsinin təkmilləşdirilməsi problemlərinin fundamental araşdırılmasının vacibliyi tədqiqat işinin aktuallığına dəlalət edir.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycan keçmiş SSRİ-nin tərkibində olduğu dövrdə regionların sosial-iqtisadi problemlərinə, sosial infrastruktur sahələrinin inkişafına, idarəedilməsinə və, xüsusilə, onun dövlət tənzimlənməsinə dair elmi tədqiqat işləri az aparılmışdır. Bu səbəbdən, respublikada və onun regionlarında sosial infrastruktur sahələri üzrə ümumilikdə deyil, ancaq onun ayrı-ayrı sahələrinə dair (məişət xidmətləri, təhsil, səhiyyə, mənzil-kommunal təsərrüfatı və s.) məhdud istiqamətlərdə tədqiqat işlərinə rast gəlinir. Müstəqillik illərində isə, regionların sosial-iqtisadi inkişaf problemləri, o cümlədən sosial infrastruktur sahələrinin tədqiqi üzrə araşdırmalar nisbətən intensivləşmişdir və bir sıra elmi əsərlər ərsəyə gətirilmişdir. Bu sahədə ölkəmizin iqtisadçı-alimlərindən Ə.Mahmudov, A.Nadirov, Z.Səmədzadə, Ə.Ələsgərov, T.Vəliyev, İ.Alıyev, Ə.Nuriyev, M.Allahverdiyev, Ə.Nağıyev, Ş.Muradov,

V.Novruzov, A.Şəkərəliyev, M.Mahmudov, H.Rüstəmbəyov, G.Gənciyev, A.Məhərrəmov, F.Rəhmanov, A.Abbasov, A.Rüstəmov, Ü.Əliyev, M.Atakişiyev, X.Hüseynova, A.Vəliyev və digərlərinin əməyini qeyd etmək olar. Son illərdə gənc tədqiqatçılardan R.Abutalıbov, R.Məmmədov, F.Mustafayev, B.Qılıncov, F.Abbasova və T.Mehdiyev də regionların sosial-iqtisadi və turizmin infrastrukturunun inkişaf problemləri istiqamətlərində araşdırmalar aparmışlar.

Sosial-iqtisadi inkişaf proseslərinin dövlət tənzimləməsi, bu proseslərdə dövlətin iştirakı, ictimai təkrar istehsal proseslərinin fasiləsizliyinin təmin edilməsi problemləri üzrə, onların mahiyyəti və nəzəri əsaslarına dair dahi və klassik dünya alimlərindən K.Marks, F.Engels, A.Smit, D.Rikardo, C.Keyns, C.Mill, J.Sey, Ç.Kob, V.Leontyev, J.Riçard, V.Pareto, P.Rozenşteyn-Rodan, R.Nurkse, A.Hirşman, J.Bernal və başqalarının iqtisadi nəzəriyyələrini, elmi töhfələrini qeyd etmək olar. Bir qrup alimlər - S.Strumilin, V.Nemçinov, M.Eydelman, M.Bor, V.Novojilov, A.Notkin, V.Jemin, A.Daynovski, D.Çuprinov, Y.Kronford, S.Şatalin, N.Nekrasov, S.Vajenin və J.Toşenko da bu istiqamətlərdə tədqiqatlar aparmışlar. Son illərdə isə regionların sosial-iqtisadi inkişaf və sosial infrastruktur sahələrinin problemləri üzrə İ.Bıkovskaya, N.Loqaçeva, F.Seyidəliyev, İ.Azin, Y.Smolina,Y.Qritsay, M.Komarov, V.Bobkov, L.Fatxullina, A.Boçkarev, V.Fomina, Y.Starodubtseva, A.Sinelnikov, V.Dokalskaya, K.Fomiçev, Y.Lubaşev, V.Qonçarenko, Q.Mullayarova, F.Kulmuxametova, T.Veşutkina, Y.Kloçko, Y. Qrinfeld və digərləri tədqiqatlar aparmışlar.

Bu istiqamətlərdə elmi baxışların, əldə olunmuş elmi-praktiki nəticələrin mahiyyətini qeyd etməklə bərabər, regionlarda sosial infrastrukturun formalaşması, inkişafının, xüsusilə onun dövlət tərəfindən tənzimlənməsi üzrə problemlərin fundamental tədqiqinə ciddi zərurət qalmaqdadır. Tədqiqat işi Azərbaycanda bu mövzu istiqamətli problemlərin kompleks araşdırıldığı ilk doktorluq dissertasiyasıdır.

**Tədqiqat işinin məqsədi və vəzifələri.** Tədqiqatın məqsədini bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikası regionlarında sosial infrastruktur sahələrinin müasir vəziyyətinin fundamental təhlili, qiymətləndirilməsi, onun dövlət tərəfindən tənzimlənməsinin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Qeyd edilən mühüm məqsədə nail olmaqdan ötrü tədqiqat işində aşağıdakı əsas vəzifələrin həlli qarşıya qoyulmuşdur:

- bazar iqtisadiyyatı şəraitində sosial infrastrukturun təkmilləşdirilməsinin nəzəri aspektlərinin araşdırılması;

- istehsal proseslərinin infrastrukturunun sosial infrastrukturla bağlılığının və qarşılıqlı əlaqələrinin öyrənilməsi;
- dövlətin regional iqtisadi siyasət sistemində sosial infrastrukturun tənzimlənməsi ilə bağlı spesifik xüsusiyyətlərin müəyyənləşdirilməsi;
- regional siyasətin mahiyyətinin açıqlanması və dövlətin bu sahədə prioritet vəzifələrinin xarakterizə edilməsi;
- regionların və ayrı-ayrı ərazilərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə qarşılıqlı vəhdətdə sosial infrastruktur sahələrinin tənzimlənməsində dünya təcrübəsinin öyrənilməsi;
- ölkə regionlarının sosial-iqtisadi inkişafının mövcud vəziyyətinin obyektiv təhlil olunması;
- regional sosial infrastruktur sahələrinin resurs potensialından səmərəli istifadənin təhlili;
- regional sosial infrastruktur sahələrinin effektiv idarəedilməsi problemləri və yerli idarəetmə orqanlarının bu proseslərdə rolunun artırılmasının əsaslandırılması;
- elm-təhsil sistemində sosial infrastrukturun müasir vəziyyətinin təhlili və sosial infrastrukturun inkişafı ilə bağlı bu sahələrdəki problemlərin təhlili;
- səhiyyə və turizm sahələrində sosial infrastrukturun inkişafı proseslərinin real qiymətləndirilməsi və bu sahələrin sosial xidmət göstərən müəssisələrinin işinin səmərəlilik prinsipləri əsasında təşkilinin araşdırılması;
- regionlarda ictimai-kütləvi sosial infrastruktur şəbəkəsinin vəziyyətinin təhlili və bu sahələrin inkişaf etdirilməsi üzrə prioritet istiqamətlərdə tənzimlənməsi mexanizmlərinin yenilənməsinin əsaslandırılması;
- regionlarda sosial infrastrukturun inkişafının sürətləndirilməsi yollarının təhlili;
- regional sosial infrastruktur sahələrinin mövcud qanunvericilik bazasının xarakterizə edilməsi və bu sahədə təkmilləşdirilmələrin aparılması üçün prioritet vəzifələrin müəyyənləşdirilməsi;
- regional sosial infrastrukturun tənzimlənməsinin təkmilləşdirilməsinin mahiyyətinin açıqlanması və bununla bağlı görüləcək tədbirlərin təsnifləşdirilməsi, strateji vəzifələrin qruplaşdırılması və s.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ümumilikdə, Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsini təşkil edən regionların sosial infrastruktur sahələri, predmetini isə ölkənin və onun regionlarının sosial infrastruktur sahələrinin kompleks inkişafı və

tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji bazasını** görkəmli iqtisadçı alimlərin dərc edilmiş elmi əsərləri, mövzu ilə bağlı fundamental tədqiqat işləri, ənənəvi bazar iqtisadiyyatlı dünya ölkələrinin təcrübəsi, Azərbaycan Respublikasında hazırda qüvvədə olan qanunlar, normativ hüquqi aktlar, ölkə Prezidentinin Fərman və Sərəncamları, respublika hökumətinin qərarları təşkil edir. Tədqiqat işində canlı müşahidə, müqayisə, iqtisadi-statistik təhlil, müvafiq qruplaşdırma və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik nəşrləri, İqtisadiyyat, Maliyyə, Təhsil, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət və Turizm, Gənclər və İdman Nazirliklərinin rəsmi nəşrləri təşkil edir. Bunlarla yanaşı, Sahibkarlığa Kömək Milli Fondunun, eləcə də müxtəlif mülkiyyət formalı təsərrüfat subyektlərinin və elmi-tədqiqat institutlarının materialları, dünya ölkələrinin tədqiqat mövzusuna dair təcrübəsi, tədqiqatçının canlı müşahidələri və xüsusi yanaşmaları da informasiya bazasının formalaşdırılmasına imkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Müstəqillik dövründə və bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikası və onun regionlarında sosial-iqtisadi inkişafın müasir tendensiyaları nəzərə alınmaqla, sosial infrastrukturların dövlət tənzimlənməsi problemlərinin fundamental tədqiqinə ilk təşəbbüs bu dissertasiya işinin əsas elmi yeniliyini təşkil edir.

Bununla belə, dissertasiya işinin digər mühüm elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- "infrastuktur", "istehsal infrastrukturu", "ictimai təkrar istehsal prosesləri", "sosial infrastruktur" kimi anlayışların nəzəri-metodoloji əsasları öyrənilmiş, bu anlayışların qarşılıqlı münasibətləri qiymətləndirilmiş və müasir dövrün tələblərinə adekvat olan elmi baxış formalaşdırılmışdır;
- sosial infrastrukturun ictimai təkrar istehsal proseslərinin fasiləsizliyinin təmin olunmasında, milli iqtisadiyyatın formalaşması və inkişafında əhəmiyyəti əsaslandırılaraq qiymətləndirilmişdir;
- mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmayaraq, regionlarda sosial infrastrukturun kompleks inkişafının təmin edilməsi və onun əsas prinsiplərini müəyyənləşdirməklə, dövlət tərəfindən tənzimlənməsinin təkmilləşdirilməsinin zəruriliyi əsaslandırılmışdır;
- regionlarda sosial infrastruktur sahələrinin resurs potensialından tam və səmərəli istifadə imkanları müəyyənləşdirilərək, bu sahələrin maddi-texniki bazasının möhkəmləndirilməsi və resurs

təminatının yaxşılaşdırılmasına dair təkliflər verilmişdir;
- şəhər yerləri ilə kənd yerləri arasındakı sosial-iqtisadi inkişaf fərqləri, həmçinin regionlararası fərqlər nəzərə alınmaqla, sosial infrastruktur sahələrinin ərazi üzrə səmərəli yerləşdirilməsinin vacibliyi ciddi arqumentlərlə əsaslandırılmışdır;
- sosial infrastruktur sahələrində, xüsusilə, respublikanın regionlarında bu sahələrin normativ və informasiya bazasının daha da təkmilləşdirilməsi istiqamətlərində müvafiq təkliflər verilmişdir;
- yeni iqtisadi münasibətlər şəraitində regionlarda sosial infrastruktur sahələrinin inkişaf istiqamətləri əsaslandırılaraq, yerli idarəetmə sisteminin təkmilləşdirilməsinə dair əsaslandırılmış təkliflər irəli sürülmüşdür;
- regional infrastruktur sahələrinin kompleks inkişafını təmin etmək, bu sahələrə yönəldilən investisiya resurslarının, ayrılan maliyyə vəsaitlərinin çoxşaxəliliyini, mənbələrini artırmaq məqsədi ilə "Regional Ərazi İnkişaf Fondu"nun yaradılması və onun əsas fəaliyyət istiqamətlərinin dövlət tənzimlənməsinin zəruriliyi əsaslandırılmışdır;
- sosial infrastruktur sahələrinin müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməsinin təkmilləşdirilməsi üçün bu sahələrin mövcud qanunvericilik bazası təhlil edilmiş və onun yenilənməsinin vacibliyi amilləri verilmişdir;
- bir sıra dünya ölkələrinin regionların inkişaf etdirilməsi, sosial infrastrukturun idarəedilməsi, maliyyələşdirilməsi və dövlət tənzimlənməsi üzrə təcrübələrindən çıxış etməklə, ölkə regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və sosial infrastrukturun təşkilinə sistemli yanaşmanın təmin edilməsi üçün tövsiyələr hazırlanmışdır;
- ölkə regionlarında sosial infrastruktur sisteminin müasir vəziyyəti, əsas problemləri və perspektiv inkişaf prioritetləri nəzərə alınmaqla, bu sistemə daxil olan obyektlərin və müəssisələrin inkişafının sürətləndirilməsi ilə bağlı proseslərin tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqat işinin praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun əsas müddəaları, hazırlanmış əməli nəticə və təkliflər, milli iqtisadiyyatın və sosial infrastruktur sahələrinin sabit inkişafının təmin edilməsinə, tədrisın təşkilinə lazımi şərait yaratmış olar. Dissertasiya işində irəli sürülmüş, nəzəri və praktiki tətbiq imkanlarına malik olan bir sıra

təkliflər Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzi-Az.ETKTİ və Tİ (Arayış №16/54-18.04.2012-ci il) və Azərbaycan Dövlət Pedaqoji Universiteti (Arayış-17.04.2012-ci il) tərəfindən bəyənilmiş və tətbiq üçün qəbul edilmişdir.

**Tədqiqat işinin aprobasiyası**. Dissertasiya işinin mövzusuna dair ümumi həcmi 45,7 çap vərəqi olan iki monoqrafiya və 49 elmi məqalə, o cümlədən 11 məqalə xarici ölkələrdə nəşr edilmişdir.

Dissertasiya işinin əsas müddəaları və irəli sürülən vacib təkliflər bir sıra elmi forumlarda: Azərbaycan EA-nın gənc alimlərinin "Böyük oktyabr və müasirlik: ictimaiyyətin aktual problemləri" mövzusunda konfrans, Bakı-1988; "Resurslara qənaət-iqtisadiyyatın, intensiv inkişafının mühüm şərtidir" mövzusunda respublika elmi-praktiki konfransı, Bakı-1988; Azərbaycan EA aspirantlarının elmi konfransı, Bakı-1988; "Kənddə əmək ehtiyatlarının formalaşdırılması və səmərəli istifadəsi problemləri" mövzusunda elmi-praktiki konfrans, Alma-Ata -1988; "Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri" mövzusunda elmi-praktiki konfrans, Bakı -2003; "Müasir mərhələdə Azərbaycanda demoqrafik inkişafın, məşğulluğunvə işsizliyin sosial-iqtisadi problemləri" mövzusunda elmi-praktiki konfrans, Bakı -2003; "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr". "Milli inkişaf modelinin formalaşması problemləri" mövzusunda respublika elmi-praktiki konfrans, Bakı-2010; "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" İqtisadiyyat və Beynəlxalq münasibətlər III Beynəlxalq konqress, Bakı-2010; "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meylləri" mövzusunda respublika elmi-praktiki konfrans, Bakı-2011; "Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı" Beynəlxalq elmi-praktiki konfrans, Bakı-2011; "Sistemli analiz və iqtisadiyyatın proqnozlaşdırması" mövzusunda Beynəlxalq elmi konfrans, Minsk-2011; "Aqrar iqtisadiyyat: müstəqilliyin 20 ilində" mövzusunda Beynəlxalq elmi-praktik konfrans, Bakı-2011; "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial iqtisadi problemləri" mövzusunda Beynəlxalq elmi-praktik konfrans, Bakı -2011; "Belarus respublikasının iqtisadi artımı: qloballaşma, innovasiya, davamlılıq" mövzusunda V Beynəlxalq elmi-praktiki konfrans, Minsk – 2012; "Müasir dünyada iqtisadiyyat, sosiologiya və hüquq: problemlər və həlli yolları" mövzusunda XII və XIII Beynəlxalq elmi-praktiki konfrans, Pyatiqorsk-2012; "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi problemləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans, 27-28 iyun 2012-ci il; "Belarus respublikasının iqtisadi artımı: qlobal-

laşma, innovasiya, davamlılıq" mövzusunda VI Beynəlxalq Elmi-praktiki konfrans, Minsk – 2013; "Müasir dünyada iqtisadiyyat, sosiologiya və hüquq: problemlər və həlli yolları" mövzusunda XVI Beynəlxalq elmi-praktiki konfrans, Pyatiqorsk – 2013; "Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri" mövzusunda beynəlxalq konfrans, Bakı-2014 ildə və s. məruzə edilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi 329 səhifədir. İş giriş, beş fəsil, nəticə və istifadə edilmiş 289 adda ədəbiyyat siyahısından ibarətdir. İşdə 76 Cədvəl və 2 Şəkil verilmişdir.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU


**Giriş**

**I Fəsil. Sosial infrastrukturun təkmilləşdirilməsinin nəzəri əsasları**

1.1. Bazar münasibətləri şəraitində sosial infrastrukturun təkmilləşdirilməsinin nəzəri aspektləri

1.2. İctimai təkrar istehsal prosesinin fasiləsizliyinin təmin olunmasında sosial infrastrukturların rolu

1.3. Regional sosial infrastrukturun dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin zəruriliyi

**II Fəsil. Regionlarda sosial infrastrukturun təkmilləşdirilməsində dövlətin regional siyasətinin əsas mexanizmləri**

2.1. Dövlətin regional siyasətinin mahiyyəti və spesifik xüsusiyyətləri

2.2. Regional siyasət kontekstində sosial infrastuktur sahələrinin kompleks inkişafının tənzimlənməsi mexanizmləri və dünya təcrübəsi

2.3. Regionlarda sosial infrastrukturun təkmilləşdirilməsinin iqtisadi inkişaf proseslərinə təsiri

**III Fəsil. Regionlarin sosial-iqtisadi inkişafının, sosial infrastruktur sahələrinin resurs potensialının və idarəedilməsi problemlərinin təhlili**

3.1. Regionların sosial-iqtisadi inkişafının təhlili

3.2. Regional sosial infrastruktur sahələrinin resurs potensialı və ondan istifadənin vəziyyəti

3.3. Regional sosial infrastruktur sahələrinin idarəedilməsi problemləri

**IV Fəsil. Regional sosial infrastruktur sahələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi**

4.1. Elm-təhsil sistemində sosial infrastrukturun müasir vəziyyəti

4.2. Səhiyyə və turizm sahələrində sosial infrastukturun inkişafı proseslərinin qiymətləndirilməsi
4.3. Regionlarda ictimai-kütləvi sosial infrastruktur şəbəkəsinin vəziyyəti
**V Fəsil. Regional sosial infrastruktur sahələrinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri**
5.1. Regionlarda sosial infrastrukturun inkişafının sürətləndirilməsini şərtləndirən amillər
5.2. Regional sosial infrastruktur sahələrinin hüquqi bazasının gücləndirilməsi məsələləri
5.3. Regional sosial infrastrukturun tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

***Təqdim olunan dissertasiya işinin məzmunu və nəticələri aşagıdakı müddəalarda əks olunur:***

**1. Sosial infrastrukturun təkmilləşdirilməsinin nəzəri aspektləri.** Bazar iqtisadiyyatı şəraitində, istehsal münasibətlərinin köklü surətdə yeniləşdirilməsi, ölkədə sosial-iqtisadi inkişafın tamamilə yeni prinsiplər əsasında formalaşdırılmasını şərtləndirir. Bu baxımdan yeni istehsal münasibətləri şəraitində, sosial infrastruktur sahələrinin formalaşdırılması və onun təkmilləşdirilməsi xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir. Bazar münasibətləri iqtisadiyyatı şəraitində real bazar iqtisadiyyatının formalaşmasında əsas və həlledici şərtlərdən biri nə istehsal etmək, necə istehsal etmək və kimin üçün istehsal etməkdən ibarətdir. Hələ XVIII əsrdə iqtisadi fikir sisteminin qurucusu hesab edilən A.Smit ümumi istehsalın ehtiyacları üçün binaların, obyektlərin tikilməsinin, təşkilatların yaradılmasının zəruri olduğunu qeyd etmişdir. İstehsal proseslərinin iştirakçıları olan insanların və bütövlükdə əhalinin işləməklə bərabər, rahat yaşamaq, sosial xidmətlərdən bəhrələnmək hüququ təmin edilmədən cəmiyyətin və iqtisadi proseslərin sabit və davamlı inkişafına nail olmaq qeyri-mümkündür. Bu ideyaları K.Marks da inkişaf etdirmiş və o, istehsalın ümumi şərtlərinin formalaşdırılmasını vacib saymışdır. Bu məqsədlə, ilk vaxtlarda nəqliyyat və energetika sisteminin təşkili, həmçinin dövlət poçtu və bir sıra digər təşkilatların yaradılmasını nəzərdə tuturdu.

"İnfrastruktur" anlayışı latıncadan "infra" – yəni "aşağı", "altında", "struktur" isə "tikinti", "yerləşmə" mənasını verir. Bu anlayış özündə istehsal və təsərrüfat proseslərinə xidmət edən sahələrin məcmusunu birləşdirir, yəni nəqliyyat və rabitə, enerji və su sistemlərinin, digər xidmət sahələrinin məcmu fəaliyyəti kimi xarakterizə olunur. Qeyd etmək lazımdır ki, "infrastruktur" termini iqtisadi ədəbiyyata XX əsrin birinci yarısının sonlarında daxil olmuşdur. Sosial infrastrukturun təkmilləşdirilməsinin nəzəri aspektlərinə bir çox azərbaycan və xarici ölkə alimlərinin-tədqiqatçılarının elmi əsərlərində baxılmışdır. Ölkəmizdə regionların inkişafına və bazar münasibətləri şəraitində sosial infrastrukturun sosial inkişafına dair çoxlu sayda dövlət proqramları, layihələr icra edilməkdədir. Bununla bərabər sosial infrastrukturun müasir dövrün tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsi problemləri də diqqəti çəkir.

Bir qrup tədqiqatçılar sosial infrastrukturun mahiyyəti və onun təkmilləşdirilməsi ilə bağlı tədqiqatlar aparmış, fikirlər irəli sürmüşlər. A.Alımov və digərləri sosial infrastruktura bir çox obyektlərin -ticarət, ictimai iaşə, əhaliyə məişət xidməti, mənzil-kommunal təsərrüfatı, nəqliyyat, rabitə, əhalinin dövlət sığortasının kreditləşdirilməsi, səhiyyə, bədən tərbiyəsi və idman, xalq təhsili, ətraf mühitin qorunması, mədəniyyət və incəsənət və sairlərin məcmusu kimi baxmışdır. Tədqiqatçılar Y.Kazakov və B.Movçana görə sosial infrastruktur dedikdə, əhalinin material və mənəvi tələbatlarının ödənilməsi məqsədi ilə, həmçinin onların daha yaxşı şəraitdə yaşaması üçün sosial-iqtisadi funksiyaların yerinə yetirilməsinə xidmət göstərən kompleks təsərrüfat sahəsi kimi başa düşülür. Tədqiqatçı A.Qrabar qeyd edir ki, sosial infrastruktur ilk növbədə əhalinin maddi və mənəvi tələbatlarını ödəməklə yanaşı, regionda yaşayış səviyyəsinin əlverişli olmasına və investorlar üçün regionun cəlbediciliyinin artmasına imkan verir. S.Basriyeva qeyd edir ki, infrastruktur dedikdə ilk növbədə istehsalçıdan istehlakçıya doğru mərhələlər keçən təsərrüfat prosesləri, material və maliyyə resursları və s. kimi elementləri özündə birləşdirən obyekt-məkan kimi başa düşülür. Tədqiqatçı K.Omarova qeyd edir ki, sosial infrastruktur ərazi-sahə kompleksi kimi çıxış etməklə, regionda işçi qüvvəsindən istifadənin yaxşılaşdırılması və əhalinin sosial müdafiəsinin təmin edilməsi vəzifələrinin yerinə yetirilməsini həyata keçirir. Tədqiqatçı İ.Bıkovskaya sosial infrastrukturun elementlərini araşdırarkən, onların funksional mahiyyətinin olduqlarını və altsistem subyektləri kimi gündəlik həyatımızın bir çox sahələrində, əsasən sosial sahələrdə - sərnişin nəqliyyatı, mühəndis qurğuları və kommunikasiyalar, kommunal-məişət

təsərrüfat sahələri, səhiyyə sistemi, sosial müdafiə şəbəkəsi və mərkəzləri, təhsil müəssisələri, uşaq müəssisələri, kütləvi xidmət şəbəkəsi, pərəkəndə ticarət və ictimai iaşə şəbəkələri, uşaq və qocalar evləri, kitabxana və mədəniyyət müəssisələri şəbəkəsi və s. təyinatlı obyektlər kimi fəaliyyət göstərirlər. Bu qeyd olunan müəlliflərin fikir və mülahizələrinə rəğmən qeyd etmək mümkündür ki, sosial infrastruktur əslində dövlətin sosial sahədə həyata keçirdiyi siyasətin özəyində dayanır və bu siyasətin reallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən sosial infrastruktur sosial-iqtisadi sahələrin əksəriyyətinin fəaliyyət mexanizmlərinin reallaşdırılması ərazisi-məkanı kimi çıxış edir. Bu baxımdan sosial infrastrukturun bazar iqtisadiyyatı tələblərinin nəzərə alınması şərti ilə təkmilləşdirilməsi mühüm zərurət kimi qiymətləndirilir. Tədqiqatçı N.Loqaçeva qeyd etmişdir ki, "regionun sosial infrastrukturu" dedikdə, regionun əhalisinin maraqlarına və tələbatına uyğun olaraq, lokallaşdırılmış ərazidə əhalinin həyat fəaliyyətinə və insan potensialının inkişafına imkan verə biləcək sahə və obyektlər şəbəkəsinin regional altsistemi başa düşülür. Tədqiqatçı M.Komarov "sosial infrastruktur" anlayışının əhatə etdiyi fəaliyyət dairəsinə bölüşdürmə və mübadilə sahələrini, istehlak xidmətlərini, əhalinin sağlamlığının qorunması tədbirlərini, ictimai fikrin formalaşdırılması və elmi dünyagörüşün inkişafı proseslərini, ictimai asayişin qorunması və idarə edilməsi strukturlarını daxil etmişdir. Digər bir tədqiqatçı V.Bobkov "sosial infrastruktur" anlayışını araşdırarkən onu həyatın keyfiyyət komponenti kimi xarakterizə etmişdir. Müəllif qeyd edir ki, sosial infrastruktur insanlara mal və xidmətlərə, mənzilə, digər zəruri sosial tələblərə nail olmaqda ən rahat və zəruri komponent kimi çıxış edir. Tədqiqatçı L.Fatxullina sosial infrastrukturun rolunu araşdırmışdır. Müəllifin fikrincə, sosial infrastruktur ilk növbədə geniş mənada həyatın keyfiyyət sistemidir. Sosial infrastruktur həyat fəaliyyətinin əksər proseslərində iştirak edir, insanların həyat keyfiyyətini yaxşıya doğru dəyişir və onu səmərəli, effektiv, komfortlu edir. Sosial infrastruktur təsərrüfat kompleksi kimi əhalinin istehsal proseslərində iştirakına münbit şərait yaradır, əhalinin sosial rifah elementlərinə və xidmətlərinə çıxışını asanlaşdırır. Müasir şəraitdə sosial infrastruktur cəmiyyətin iqtisadi və sosial inkişafının dərəcəsinin mühüm xarakteristikası kimi çıxış edir. Tədqiqatçı A.Boçkarev sosial infrastrukturun inkişafının idarə edilməsi üzrə araşdırmalarında bildirir ki, sosial infrastruktur ictimai inkişafın maddi-sübut elementlərinin qarşılıqlı təsiri əsasında yaranır və iqtisadiyyatın altsistemi kimi çıxış

edir. Bu halda, sosial infrastruktur ictimai istehsalın müxtəlif fazalarında fəaliyyət göstərir və cəmiyyətin müxtəlif sosial tələbatlarının ödənilməsində əsas fəaliyyət sahəsi rolunu daşıyır. Qeyd olunan müəlliflərin mülahizələri və elmi fikirlərinə əsasən bazar münasibətləri şəraitində və qloballaşma elementlərinin intensivləşdiyi hazırkı dövrdə sosial infrastrukturun davamlı inkişaf etdirilməsi, dövrün sosial-iqtisadi inkişaf səviyyəsinə adekvat olaraq təkmilləşdirilməsi, göründüyü kimi, obyektiv zərurət kimi ortaya çıxır. Bu halda dövlətin iqtisadi siyasətinin vacib elementlərindən və mexanizmlərindən biri kimi sosial infrastrukturun təkmilləşdirilməsi məsələləri aktuallığı ilə seçilir.

Sosial infrastrukturun mahiyyəti və təkmilləşdirilməsi üzrə nəzəri-konseptual baxışların, elmi əsərlərin araşdırılması və təhlili sosial infrastrukturun bazar iqtisadiyyatı şəraitində təkmilləşdirilməsi zəruriliyini şərtləndirən bir sıra müddəaları ümumiləşdirməyə imkan verir. Sosial infrastruktur bir çox və əhatəli fəaliyyət sahələrini birləşdirən sosial-təsərrüfat kompleksi kimi çıxış etməklə bərabər, ictimai istehsalın, bütövlükdə bazar iqtisadiyyatı proseslərinin mürəkkəb tsikllərinin reallaşdırılmasında əhəmiyyətli və faydalı fəaliyyət kompleksi kimi də qəbul oluna bilər. Bazar iqtisadiyyatı prosesləri dərinləşdikcə və bazar münasibətləri iqtisadi sahələrlə bərabər, cəmiyyətin bütün sahələrini əhatə etdiyindən, bu istiqamətlərdə kompleks və sistemli formada sosial infrastruktur bazasının yaradılması, eyni zamanda, təkmilləşdirilməsi bir zərurət kimi ortaya çıxır və s.

**2. İctimai təkrar istehsal proseslərində sosial infrastrukturların əhəmiyyəti.** Sosial infrastruktur inkişaf etdikcə, ictimai təkrar istehsal proseslərinin fasiləsiz və dayanıqlı olması, bilavasitə bu proseslərin bir-biri ilə qarşılıqlı əlaqədə və mühitdə olması ilə bağlıdır. Təkmilləşdirilmiş və dövlət tərəfindən mövcud ictimai təkrar istehsal proseslərinə adekvat tənzimlənmiş sosial infrastruktur insanların zəruri və çoxlu sayda maddi və sosial tələbatlarını ödəməklə, istehsal prosesindəki məsrəflərin azalmasına, bu proseslərin ahəngdar aparılmasına əlavə stimullar yaradır. Mülkiyyət və təsərrüfatçılıq formasından asılı olmayaraq, cəmiyyətin, maddi-mənəvi tələbatının ödənilməsi, geniş təkrar istehsal proseslərinin təşkilindən, onun artım tempindən bilavasitə asılıdır. Belə ki, bu problem istehsaldan başlamış, bölgü, mübadilə və istehlakla qarşılıqlı, üzvi surətdə bağlı olmaqla, bütövlükdə, sosial-iqtisadi inkişafın əsasını təşkil edir.

Azərbaycan, zəngin təbii resurslara malik olmaqla belə, onların heç də hamısı təsərrüfat dövriyyəsinə daxil edilməmişdir. Ölkədə

mövcud əmək ehtiyatlarından tam və səmərəli istifadə edilməsi bir sosial-iqtisadi problem kimi qarşıda durur. Bununla əlaqədar olaraq, dövlət daha geniş sosial-iqtisadi tədbirlər görməlidir. Geniş təkrar istehsal prosesində xüsusi yeri və rolu olan insan amilindən zəif istifadə edilir. Digər tərəfdən, araşdırmalar göstərir ki, ölkədə daha fəal demoqrafik siyasət həyata keçirmək lazımdır. Belə ki, hər şeydən əvvəl respublikada əhali artımını stimullaşdırmaqla, ölümü, xüsusilə, uşaq ölümünü əsaslı surətdə azaltmaq, ən başlıca sosial problemlərdəndir. Qeyd etmək lazımdır ki, əhali artımı 1990-cı ilə nisbətən 2014-cü ilin əvvəlinə hər 1000 nəfərə görə doğum 25,9 nəfərdən 18,3 nəfərə enmişdir. Ölkədə diqqət çəkən tendensiyalardan biri də, kənd əhalisinin getdikcə azalması və kənd əhalisinin şəhərlərə ardıcıl axınının davam etməsidir. 1960-1990-cı illər ərzində bir çox ucqar ərazilərdə (harada ki sosial-iqtisadi problemlər dərinləşmişdi), demək olar ki, kəndlər tamamilə boşalmışdır. Əhalinin səmərəsiz miqrasiyası nəticəsində màddi istehsal sahələri ilə xidmət sferası arasında ciddi uyğunsuzluqlar baş vermişdir. Belə ki, əmək qabiliyyətli əhalinin hələ də 39 faizi kənd təsərrüfatı istehsalında çalışır ki, bu da kənd təsərrüfatında əsas istehsal proseslərinin mexanikləşdirilməməsindən xəbər verir. Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində, kənd təsərrüfatında istehsal və xüsusilə, sosial infrastrukturun zəif inkişaf etməsi ucbatından, əkinçilik və heyvandarlıqda istehsal prosesləri əsasən əl əməyi ilə həyata keçirilir. Məhz buna görə, təkrar istehsal proseslərinin intensivləşdirilməsi lazımi səviyyədə deyildir. Kənd təsərrüfatı sahələrinin kompleks elektromexanikləşdirilməsi və avtomatlaşdırılması nəticəsində xeyli əmək qabiliyyətlilər qanunauyğun hal olaraq azad olmaqla, digər istehsal və ya xidmət sahələrində çalışmalıdırlar. İnkişaf etmiş dünya və Avropa ölkələrinin çoxəsrlik təcrübəsi qeyd etdiyimiz qanunauyğunluğu çoxdan sübut etmişdir. Belə ki, hal-hazırda ABŞ-da ümumi əmək qabiliyyətlilərin ancaq 1,5-2%-i kənd təsərrüfatı istehsalında çalışanlardan ibarətdir. Əhalinin sayına görə dünyada birinci yerdə gedən Çində kənd təsərrüfatı sferasında 100 milyon nəfər çalışır ki, bu da ölkə üzrə ümumi əmək qabiliyyətlilərin 18 %-ni təşkil edir.

Qeyd edək ki, sosial infrastrukturun iqtisadi səmərəliliyi iki səviyyədə – mikro və makro səviyyələrdən asılı olaraq müəyyənləşdirilməlidir. Mikro səviyyələrdə, yəni istehsal kollektivlərində sosial səmərəni müəyyənləşdirməyin metodoloji əsasları zəif olmaqla bərabər, konkret göstəricilər sistemi də işlənməmişdir. İstehsalın səmərəliliyinin yüksəldilməsinə, mexanikləşdirmə və avtomatlaşdırmanın inkişaf

səviyyəsi, məhsulun keyfiyyətinin yüksəldilməsi, əmək, iş və mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların təhsil və ixtisas səviyyəsinin yüksəldilməsi əsaslı təsir göstərir. Məhz buna görə də sosial problemlərin ayrılıqda deyil, ancaq kompleks qaydada həllinə çalışmaq lazımdır. Belə ki, sosial infrastruktur, insanların şüurlu həyat fəaliyyətlərini həyata keçirməyə lazımi şərait yaradan, ictimai inkişafın bütün maddi-əşya elementlərini əhatə edən və getdikcə elmi-texniki tərəqqi nəticəsində yeniləşən, təkmilləşən, mürükkəb bir prosesdir (Şəkil 1).




***Şəkil 1. Sosial infrastrukturun funksional-sahə üzrə strukturu***

Şəkil 1-dən göründüyü kimi, sosial infrastruktur özünün təyinat funksiyalarından asılı olaraq, ictimai təkrar istehsal prosesinin əvvəlindən başlayaraq son proseslərə kimi müxtəlif formalarda bu proseslərin iştirakçısı kimi çıxış edir. Beləliklə, ictimai təkrar istehsal prosesində sosial infrastruktur mühüm komponent kimi çıxış edir və bu, əsasən aşağıdakı amillərlə izah olunur:

- sosial infrastruktur ictimai təkrar istehsal prosesinin mürəkkəb mərhələlərinin fasiləsiz formada davamlı təşkili üçün əlverişli mühit və şəraitin təmin olunmasında ciddi əhəmiyyət daşıyır;
- sosial infrastruktur ictimai təkrar istehsal prosesində, ilk növbədə, bölüşdürmə və dəyişdirilmə proseslərində fəal iştirakı ilə bu prosesin səmərəliliyinə əlavə stimullar verir;

- sosial infrastruktur geniş çeşiddə məişət-kommunal, nəqliyyat və digər sahələrlə bağlı xidmətlər göstərməklə, ictimai təkrar istehsal prosesinin ahəngdarlığında fəal iştirak edir;
- sosial infrastruktur səhiyyə, sanator-kurort, turizm-rekreasiya, sosial müdafiə kimi fəaliyyət sahələri hesabına ictimai təkrar istehsal prosesinin iştirakçılarının sağlamlığının müdafiəsi üçün əlverişli şərait yaradır;
- sosial infrastruktur cəmiyyətin sosial və iqtisadi fəallığının tarazlaşdırılmasında, milli iqtisadi maraqların reallaşdırılmasında, ölkənin ictimai məhsulunun davamlı artımında kompleks və effektiv fəaliyyət sahəsi kimi çıxış edir və s.

**3. Sosial infrastrukturun regional aspektdə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri.** Bazar iqtisadiyyatı şəraitində Azərbaycanda, xüsusilə, ölkənin regionlarında sosial infrastrukturun formalaşması və inkişafının dövlət tənzimlənməsi sistemli yanaşmanı şərtləndirir. Bu baxımdan regional sosial infrastrukturun dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin zəruriliyi diqqəti cəlb edir. Tədqiqatlar göstərir ki, ölkəmizdə mövcud olan təbii-iqtisadi regionlar, sosial-iqtisadi inkişaf baxımından bir-birilərindən əsaslı surətdə fərqlənirlər. Hər bir regionun mənimsənilməsi, əhalinin sayı, sıxlığı, hər 1000 nəfər hesabına milli daxili məhsul istehsalı, pullu xidmətlərin həcmi, gənclərin sayı və, nəhayət, təbii-iqlim şəraitinə görə fərqlənirlər. Müasir bazar iqtisadiyyatı şəraitində regionlarda, sosial-iqtisadi inkişaf problemlərinin əsaslı surətdə dövlət tərəfindən tənzimlənməsi zəruri şərt kimi çıxış edir. Dövlətin iqtisadiyyata müdaxilə etməsi, konkret olaraq sosial-iqtisadi proseslərin tənzimlənməsi, ümumilikdə iqtisadiyyatın və onun tərkib hissəsini təşkil edən regionlar üzrə sistemli formada həyata keçirilir. Bu halda hər bir konkret regionda istehsal strukturu ilə əlaqədar olaraq müvafiq sosial infrastruktur formalaşdırılaraq inkişaf etdirilməlidir.

Qeyd etmək lazımdır ki, ölkənin regionlarında qarşıya qoyulan məqsəd və vəzifələr əsasən bir-birilərinə yaxınlığı ilə diqqət çəkir. Sosial infrastrukturun tənzimlənməsinin təkmilləşdirilməsi proseslərində aşağıdakılara optimal əməl olunması vacib şərtlər kimi çıxış edirlər:

– regionların mövcud iqtisadi inkişafından asılı olaraq sosial infrastruktur sahələrinin kompleks inkişafının təmin edilməsi;
– regionlararası sosial-iqtisadi inkişaf səviyyəsinin getdikcə bərabərləşdirilməsi;
– cəmiyyət üçün strateji əhəmiyyət kəsb edən regionların üstün

inkişafının təmin edilməsi;

– regionlarda ətraf mühitin mühafizəsinin tənzimlənməsi və s.

Azərbaycanda mövcud olan iqtisadi rayonların sosial-iqtisadi inkişafında ciddi fərqlər vardır və onun hər birində sosial infrastruktur sahələrinin inkişafı və tənzimlənməsi xüsusi yanaşma tələb edir. Başlıca problemi mövcud olan sosial-iqtisadi fərqlərin aradan qaldırılması ilə yanaşı, onun yaxın və uzaq müddətlərə strateji planlaşdırılması təşkil edir. Bu baxımdan ən başlıca və həlledici problemlərdən biri hər bir konkret regionun sahib olduğu təbii resurslarla zənginliyi, torpaq fondu, su və əmək ehtiyatları, təbii iqlim şəraitinin düzgün qiymətləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Regionlararası sosial-iqtisadi fərqlərin tənzimlənməsində mövcud təbii potensial düzgün qiymətləndirilməlidir. Regionların ixtisaslaşdırılmasını müəyyən edən təbii amillərin düzgün qiymətləndirilməsi son dərəcə diqqəti cəlb edən nəzəri və metodoloji problemlərdəndir.Bazar iqtisadiyyatı şəraitində region iqtisadiyyatı istər nəzəri və istərsə də praktiki baxımdan hələ də kifayət səviyyədə tədqiq edilməmişdir. Nəzərə alsaq ki, region iqtisadiyyatı mikro və makro iqtisadiyyat arasında mühüm körpü rolunu oynayır, onda problemin tədqiqinin əhəmiyyəti bir daha artmış olur. Məhz buna görə də regional sosial-iqtisadi inkişafa nail olmadan, ümumilikdə, milli iqtisadiyyatı inkişaf etdirmək qeyri mümkündür. Region iqtisadiyyatı milli iqtisadiyyatın tərkib hissəsini təşkil etməklə bərabər, ölkə iqtisadiyyatının formalaşması və inkişafında xüsusi rola və əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası müxtəlif təbii iqtisadi regionlara bölünmüşdür ki, onlar da öz ərazi xüsusiyyətlərinə, təbii-iqlim şəraitinə görə bir-birindən fərqlidirlər. İctimai istehsalın miqyası genişləndikcə, bazar subyektləri arasında iqtisadi əlaqələr, elmi-texniki tərəqqi sürətləndikcə, cəmiyyətdə, iqtisadi-sosial və mənəvi proseslərin qarşılıqlı əlaqələri gücləndikcə, dövlətin tənzimləyici rolu və əhəmiyyəti obyektiv surətdə artmış olur. Ənənəvi bazar iqtisadiyyatlı ölkələrdə, sosial infrastrukturun aparıcı sahələrindən olan təhsil-elm və səhiyyə əsasən dövlət büdcəsindən maliyyələşdirilir və idarə edilir. Hər bir regionun mövcud xüsusiyyətləri ciddi surətdə nəzərə alınmaqla, müvafiq sosial infrastruktur formalaşdırılmalıdır. Belə olduğu halda, regionların təşkilatı-iqtisadi müstəqilliyini təmin etməklə belə, dövlətin regional siyasəti ilə regiondaxili siyasət qarşılıqlı vəhdət halında həyata keçirilməlidir. Regionlarda sosial infrastrukturun tənzimlənməsindəki aşağıdakı vahidlik prinsiplərinə əməl edilməlidir:

-vahid sosial-iqtisadi siyasət;

-vahid sosial təminat sistemi;

-vahid sosial müdafiə sistemi və s.

Bütün bunlarla bərabər, hər bir regionun mövcud sosial-iqtisadi şəraitinə də xüsusi diqqət vermək lazımdır:

-məşğulluq, daxili demoqrafiya və kadr hazırlığı;

-sosial infrastruktur sahələrinin inkişaf səviyyəsi;

-ekoloji vəziyyət və ətraf mühitin mühafizəsinin vəziyyəti;

-əhalinin sosial müdafiəsi və sosial təminatının vəziyyəti.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, hər bir konkret region bir təşkilati qurum kimi öz ərazisində müvafiq sosial infrastruktur sahələrinin davamlı və sabit inkişafı üçün yerli potensialdan daha dolğun və səmərəli istifadəni təmin etməlidir və s.

**4. Dövlətin regional siyasətinin mahiyyəti və xüsusiyyətləri.** "Regional siyasət" dedikdə, əsasən, dövlətin inzibatı və iqtisadi tədbirləri, kompleks qanunvericilik aktları, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və bu məqsədlə məhsuldar qüvvələrdən səmərəli istifadənin təşkili üçün dövlət tənzimlənməsi tədbirlərinin tərkib hissəsi başa düşülür. Araşdırmalar göstərir ki, Azərbaycanın regionları, mövcud subyektləri, müxtəlif inkişaf parametrlərinə görə bir-birindən fərqlənirlər. Dövlətin regional siyasətində, xüsusilə də, həyata keçirilməsi nəzərdə tutulan müvafiq tədbirlər sistemində hər bir regionun faktiki real vəziyyəti düzgün və ətraflı qiymətləndirilməlidir. Hər bir iqtisadi regionun inkişaf strategiyasında, birinci növbədə mövcud sosial-iqtisadi fərqlərin orta respublika göstəriciləri səviyyəsinə çatdırılması təmin edilməlidir. Keçid dövründə sosial-iqtisadi inkişaf baxımından zəif inkişafa məruz qalmış, Kəlbəcər, Laçın, Yuxarı Qarabağ və onlara həmsərhəd olan digər regionlar üçün daha çox investisiya qoyuluşları tələb edilir və s.

Qeyd edək ki, dövlətin sosial-iqtisadi siyasətinin aşağıdakı ən mühüm cəhətləri əhatə etməsi daha effektiv nəticələrə gətirib çıxarardı:

- sosial-iqtisadi inkişafın elmi cəhətdən əsaslandırılmış strategiyasının, konsepsiyalarının işlənilib hazırlanması və inkişaf etdirilməsi;
- işlənilib hazırlanmış konsepsiyaların iqtisadi siyasətin real tətbiqi sahəsinə keçirilməsi, gələcək dövr üçün ölkə iqtisadiyyatının inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi;
- bütün kollektivlər və təşkilatlarda dövlətin sosial-iqtisadi strategiya, milli konsepsiyasının həyata keçirilməsinin təmin edilməsi və s.

Bu məqsədlərə nail olmağın yollarının, iqtisadi inkişafın əsas meyillərinin elmi cəhətdən əsaslandırılması yeni istehsal münasibətlərinin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətlərini

özündə əks etdirir. Dövlət regional sosial-iqtisadi siyasətini formalaşdırarkən, bu amillərin nəzərə alınması da diqqəti cəlb edir:

- regional iqtisadi fərqlərin aradan qaldırılması mexanizmlərinin müəyyənləşdirilməsi;
- sosial mühitin və region əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması tədbirlərinin işlənib hazırlanması;
- demoqrafik proseslərin öyrənilməsi və proqnozlaşdırılması;
- regional resurslardan səmərəli istifadənin istiqamətlərinin təyin olunması;
- regionda sosial infrastrukturun inkişafı, təkmilləşdirilməsi və onun tənzimlənməsi ilə bağlı mühüm məsələlərin nəzərə alınması və s.

Məlum olduğu kimi, keçmiş ittifaq hökuməti tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilən vahid sosial-iqtisadi siyasət, müasir suveren Azərbaycan Respublikasının bazar münasibətləri şəraitində sosial-iqtisadi siyasəti ilə uzlaşa bilməzdi. Azərbaycan dövlətinin özünə xas, yəni müasir və gələcək sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq, bazar münasibətlərinə uyğun, yeni sosial-iqtisadi siyasəti formalaşdırmalıdır. İnkişaf etmiş dünya ölkələrində olduğu kimi, bu siyaəstin də əsasını insanların hərtərəfli, məqsədyönlü inkişaf fəaliyyəti təşkil etməlidir. Heç də sirr deyildir ki, keçmiş ittifaq hökuməti bu mühüm bəşəri müddəanı ancaq siyasi şüar kimi istifadə etmişdir. Faktiki olaraq 70 ildən çox bir dövrdə ölkədə səmərəli bölgü və əmək münasibətləri yaradılmamışdır. Cəmiyyətin tarixi inkişaf mərhələlərində ən ciddi və qlobal problemlərdən biri də insan inkişafı problemidir ki, bu da ölkədə düzgün və səmərəli sosial-iqtisadi siyasətin qurulmasından bilavasitə asılıdır. Buna görə də, bazar iqtisadiyyatı tələblərinə cavab verən düşünülmüş, səmərəli sosial inkişaf proqramları işlənib hazırlanmalıdır. Dövlətin sosial siyasəti mövcud və gələcək sosial-iqtisadi inkişafdan asılı olaraq əsasən bu istiqamətlərdə həyata keçirilməlidir:

- bazar iqtisadiyyatının qanunauyğun tələbləri nəticəsində ölkədə baş vermiş işsizlik-məşğulluq probleminin həlli ilə bağlı cari və perspektiv tədbirlər işləməklə, əhalinin minimum dolanışığını təmin etmək;
- getdikcə sürətlənməkdə olan elmi-texniki tərəqqi şəraitində mikro-makro səviyyələrdən asılı olaraq sosial infrastrukturun formalaşdırılması və inkişafının dövlət tərəfindən tənzimlənməsi, ölkədə daha səmərəli sosial infrastrukturun yaradılması;
- iqtisadiyyatın sosial yönümlülüyünün daha da gücləndirilməsi;

– ölkədə, cəmiyyət üzvləri arasında sosial ədalət prinsiplərinə əməl edilməsi;
– müxtəlif təminat səviyyələrinə malik olan insanların sosial müdafiəsinin təşkili və tənzimlənməsi;
– əlillərin məşğulluğunun səmərəli təşkil olunması və s.

**5. Regional sosial infrastukturun inkişafının tənzimlənməsinin dünya təcrübəsi.** Dövlətin regional siyasətini həyata keçirmək məqsədilə müvafiq, konkret iqtisadi mexanizmlər işlənilib hazırlanmalıdır. Belə mexanizmlərin işlənilib hazırlanmasında aşağıdakı əsas prinsiplərə əməl olunması məqsədəuyğun sayılır:
– mərkəzi idarəedici orqanlarla, regional idarəedici orqanlar arasında, düzgün və səmərəli hakimiyyət bölgüsünü təmin etmək;
– regionlarda sosial-iqtisadi inkişafa bərabər şərait yaratmaqla yanaşı, ictimai mənafeyə üstünlük vermək;
– regionların əsas əlamətlərini (xüsusiyyətlərini) nəzərə almaq şərtilə, regional siyasətin reallaşdırılmasına əməl etmək;
– regional siyasətin həyata keçirilməsində tətbiq edilən iqtisadi mexanizmlərin şəffaflığının təmin olunması və s.

Bunlarla bərabər, bazar münasibətləri şəraitində dövlətin regional siyasətinin əsas istiqamətləri və onun həyata keçirilməsi üçün aşağıdakı ardıcıllığa xüsusi əhəmiyyət vermək lazımdır:
– region əhalisinin minimum həyat səviyyəsini təmin etmək;
– regionlarda kənd yaşayış məntəqələrində, əmək qabiliyyətli əhalinin məşğulluğunu yaxşılaşdırmaq;
– maddi istehsalı genişləndirmək əsasında daxili regional bazarların tutumunu əsaslı surətdə yüksəltməklə əhalinin artan istehlak tələbatının, məsələn, qida məhsullarına olan tələbatının sabit ödənilməsinə zəmin yaratmaq;
– regionlarda ətraf mühitin çirkləndirilməsinə və təbiətdən səmərəli istifadəni təşkil etmək istiqamətlərində ciddi tədbirlər sistemi formalaşdırmaq əsasında ekoloji təhlükəsizliyi təmin etmək və s.

Qeyd etmək lazımdır ki, ölkədə və xüsusilə də onun regionlarında məhsuldar qüvvələrin düzgün yerləşdirilməsi və inkişafı dövlətin regional siyasətinin əsasını təşkil edir. Dünya təcrübəsi və tədqiqat göstərir ki, həmin problemlərin həlli aşağıdakı mühüm vasitələrdən düzgün istifadəni şərtləndirir:
– regionlar üzrə investisiyaların səmərəli yerləşdirilməsi və istifadəsi;
– əsas kapitalın yönəldilməsində optimallığın təmin olunması və s.

Dünyanın müxtəlif ölkələrində bir qayda olaraq, məsələn, bir qrup regionlarda əmək ehtiyatlarının sayı çox, başqa qrup rayonlarda isə azdır. Digər tərəfdən "problemli" rayonlar və depressiv rayonlar da mövcuddur. Bu məsələlərdə problemə regionların faktiki sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq fərqli yanaşmaq lazım gəlir. Belə ki, "problemli" və depressiv rayonlara daha çox dövlət dəstəyi, güzəştlər, dotasiyalar və subsidiyalar ayırmaq zərurəti yaranır.

Dövlətin regional siyasətinin başlıca istiqamətlərindən biri də bazar iqtisadiyyatı şəraitində əhalinin sosial-iqtisadi problemlərinin həll edilməsidir. Dünya təcrübəsi göstərir ki, bu mühüm istiqamətdə iqtisadi inkişaf transformasiyaları nəzərə alınmaqla, yeni mexanizmlərin işlənib hazırlanmasına zərurət xeyli artmışdır. Dövlətin regional siyasətinin sürətlənməsi prosesləri son 20-30 ildə xeyli intensivləşmişdir. Bir sıra ölkələrin - Almaniya, Belçika, Fransa, İngiltərə, İsveçrə, Türkiyə və sair inkişaf etmiş dövlətlərin təcrübəsi bu sahədə faydalı hesab oluna bilər. Bu qeyd olunan ölkələrdə regionların sosial – iqtisadi inkişafının sistemli şəkildə təmin edilməsi, ilk növbədə sosial infrastrukturun güclü bazasının yaradılması, bu proseslərin tənzimlənməsinin təkmilləşdirilməsi tədbirlərinin maliyyələşdirilməsi üçün büdcə vəsaitlərindən, məqsədli federal büdcə ayırmalarından geniş formada istifadə olunur. Dünya ölkələrində regional sosial – iqtisadi siyasət formalaşdırarkən mühüm element kimi ümumi məşğulluq problemləri çıxış edir. Bu baxımdan ölkənin milli sərvətlərindən, mövcud əmək ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə müxtəlif məşğuliyyət formalaranın təşkilinə kömək göstərən effektiv sosial infrastuktur şəbəkəsinə xüsusi əhəmiyyət verilməli və regionlarda bu istiqamətdə effektiv tədbirlər görülməlidir. İnkişaf etmiş dünya ölkələrində əmək qabiliyyətinə malik olan şəxslərlə yanaşı, əlillər üçün də xüsusi, geniş məşğuliyyət formaları təşkil edilmişdir ki, bunun da nəticəsində səmərəli sosial infrastuktur sistemi əhalinin bütün təbəqələrini əhatə edə bilmişdir. Problemin bu əsas istiqamətdə həlli, əhalinin sosial rifahının yeni prinsiplər əsasında təmin olunmasını, regional sosial-iqtisadi prioritetlərin transformasiyasını, bu proseslərdə sosial infrastrukturun inkişafının yüksək standartlar səviyyəsinə qaldırılmasını, bütövlükdə regionda sosial-iqtisadi inkişaf proseslərinin təkmilləşdirilməsini, dövrün tələb və təkliflərinə uyğun olaraq, tənzimlənməsini tələb edir və s.

**6. Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafının müasir vəziyyəti.** Azərbaycanda uğurlu neft strategiyasının reallaşdırılması ölkə regionlarının sosial-iqtisadi inkişafının balanslaşdırılmasına və sürətləndirilməsinə münbit şərait yaratmışdır. Bu baxımdan hazırda olkə

regionlarının sosial-iqtisadi inkişaf prioritetləri olkə rəhbərliyinin və hökumətin daim diqqət mərkəzində olur. Digər tərəfdən regionlarda infrastruktur obyektlərinin sayı və potensialı artıqca, regionların sosial-iqtisadi inkişaf tendensiyaları güclənməkdədir.

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı bütövlükdə ölkənin iqtisadi inkiaf proseslərinin sürətləndirilməsində, şəhər yerləri ilə kənd əraziləri arasında sosial-iqtisadi fərqlərin azaldılmasında mühüm əhəmiyyət daşıyır. Akademik R.Mehdiyev Azərbaycanın gələcək inkişafında əsas iqtisadi amilləri araşdırarkən, belə bir qənaətə gəlmişdir ki, mühüm prioritetlərdən biri də, mövcud resurslardan və coğrafi mövqedən istifadə olunmaqla, Azərbaycanın bütün bölgələrinin sosial-iqtisadi inkişafının müasir tələblər səviyyəsində təmin edilməsidir. Bu halda mühüm strateji hədəflər sırasında, ilk növbədə, regional səviyyədə sosial-iqtisadi inkişafın bütün istiqamətlərinin, o cümlədən, sosial infrastruktur sahələrinin davamlı və sabit inkişaf dinamikasına nail olunması üzrə vəzifələr və kompleks tədbirlər yer alır. Hər bir ölkənin regional sosial-iqtisadi inkişafı kompleks xarakter daşımalı, regionların spesifik cəhətləri nəzərə alınmaqla, burada sosial-iqtiadi inkişafın mövcud infrastruktur bazasının dinamik inkişaf siyasəti və mexanzimi formalaşdırılmalı, regionların sosial-iqtisadi inkişafının müxtəlif istiqamətlərdə səmərəli fəaliyyətinin təşkili üçün zəruri tədbirlər görülməli, bunlarla bağlı, infrastruktur obyektləri şəbəkəsinin, o cümlədən, sosial infrastruktur sisteminin davamlı inkişafının təmin edilməsi vacib şərtlər kimi çıxış edirlər.

Azərbaycanda regionların sosial-iqtisadi inkişaf prioritetləri müasir iqtisadi inkişaf modelimizin əsasında yer almış iqtisadi siyasət istiqamətlərindən biridir. Dövlət tərəfindən regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün çoxlu sayda siyasi və iqtisadi mexanizmlər işlənib hazırlanmış və qanunvericilik bazası formalaşdırılmışdır. Bunlarla bərabər, əhalinin sosial-iqtisadi inkişaf proseslərində fəallığının artırılmasında istehsal və sosial infrastrukturun qarşılıqlı inkişafı və genişləndirilməsi prosesləri bu regionlarda yaşayan insanların həyat şəraitinin yaxşılaşdırılmasına, sosial rifahının yüksəldilməsinə əlavə imkanlar açır. Azərbaycanda da müstəqillik dövründə bir çox kəndlərin ərazilərində istehsal və sosial infrastruktur sisteminin genişləndirilməsi nəzərə alınmaqla, qəsəbə və şəhərlərin yaradılması proseslərinə başlanılmışdır. Hələ keçmiş SSRİ dövründə Azərbaycan aqrar-sənaye ölkəsi kimi xarakterizə olunurdu. Baxmayaraq ki, o dövrdə və elə indinin özündə də ölkədə geniş və güclü potensiala malik hasilat sənayesi və sənayenin digər sektorları mövcud olmuşdur və

bu tendensiyalar davam etməkdədir, fikrimizcə, Azərbaycan müasir dövrdə də tam olaraq, hələlik sənaye ölkəsinə hələlik çevrilməyib, yəni aqrar sənaye ölkə statusu hələ də aktualdır.

Ölkədə aparılan iqtisadi islahatlar dərinləşdikcə və bazar iqtisadiyyatı genişləndikcə təsərrüfat subyektlərinin yaradılması və fəaliyyəti məsələləri də regionların sosial-iqtisadi inkişafına ciddi təsir göstərə biləcək amillərdən hesab olunur. Bu baxımdan təsərrüfat subyektləri bazar iqtisadiyyatı şəraitində mövcud reallılqlar nəzərə alınmaqla, regionun sosial-iqtisadi inkişafının əsas yükünü öz üzərlərinə götürməklə bərabər, eyni zamanda, yerli idarəetmə orqanları ilə birlikdə sosial infrastruktur şəbəkəsinin genişləndirilməsində ciddi fəaliyyət göstərirlər. Azərbaycanın iqtisadi rayonları üzrə təsərrüfat subyektlərinin sayı Cədvəl 1-də verilmişdir.

***Cədvəl 1***

**Azərbaycanın iqtisadi rayonları üzrə təsərrüfat subyektlərinin sayı (ilin əvvəlinə)**

| | 2006 | | 2011 | | 2014 | | 2015 | |
|---|---|---|---|---|---|---|---|---|
| | hüquqi | fiziki | hüquqi | fiziki | hüquqi | fiziki | hüquqi | fiziki |
| Ölkə üzrə cəmi: | 70287 | 209170 | 93416 | 306933 | 86010 | 454997 | 87090 | 552775 |
| Bakı şəhəri | 36712 | 71115 | 52883 | 109563 | 45942 | 158472 | 47862 | 160562 |
| Abşeron | 3822 | 12358 | 5388 | 24427 | 5300 | 21230 | 5700 | 23230 |
| Gəncə-Qazax | 5016 | 23632 | 6018 | 33980 | 6024 | 56641 | 6354 | 59771 |
| Şəki-Zaqatala | 2888 | 13249 | 3373 | 17801 | 3706 | 28445 | 3907 | 30755 |
| Lənkəran | 3933 | 14306 | 4637 | 22514 | 4772 | 38141 | 3762 | 39142 |
| Quba-Xaçmaz | 2229 | 13633 | 2492 | 17177 | 2524 | 25149 | 3565 | 26149 |
| Aran | 9399 | 44234 | 11720 | 57173 | 12025 | 89781 | 13050 | 92781 |
| Yuxarı Qarabağ | 1578 | 1408 | 1918 | 4357 | 1845 | 10918 | 1945 | 12918 |
| Kəlbəcər-Laçın | 815 | 31 | 806 | 34 | 551 | 2072 | 661 | 2172 |
| Dağlıq Şirvan | 1358 | 5000 | 1481 | 8056 | 1480 | 13083 | 1581 | 14081 |
| Naxçıvan | 2537 | 10204 | 2700 | 11851 | 1841 | 15065 | 1941 | 16761 |

Cədvəl 1-in təhlilinə baxsaq, görərik ki, 2006-2015-ci illər ərzində Azərbaycanda iqtisadi rayonlar üzrə təsərrüfat subyektlərinin sayının artım dinamikası nümayiş etdirmişdir. Bu dövr ərzində hüquqi təsərrüfat subyektlərinin sayı 22,4 % artaraq, 2014-cü ilin əvvəlinə 86010, 2015-ci

ildə 87090 təşkil etmişdir. Həmin dövr ərzində fiziki təsərrüfat subyektlərinin sayı 2,2 dəfə artaraq, 2014-cü ilin əvvəlinə 454997 olmuşdur. Baxılan dövr ərzində Bakı şəhərində hüquqi təsərrüfat subyektlərinin sayı 25,1 % artmış və 2015-ci ilin əvvəlinə 552775, Abşeron iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 38,7 % artmış və 2014-cü ilin əvvəlinə 5300, Gəncə-Qazax iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 20,1 % artmış və 2014-cü ilin əvvəlinə 6024, Şəki-Zaqatala iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 28,3 % artmış və 2014-cü ilin əvvəlinə 3706, Lənkəran iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 21,3 % artmış və 2014-cü ilin əvvəlinə 4772, Quba-Xaçmaz iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 13,2 % artmış və 2014-cü ilin əvvəlinə 2524, Aran iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 27,9 % artmış və 2014-cü ilin əvvəlinə 12025, Yuxarı-Qarabağ iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 16,9 % artmış və 2014-cü ilin əvvəlinə 1845, Dağlıq Şirvan iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 9,0 % artmış və 2014-cü ilin əvvəlinə 1480 artmışdır. 2015-ci ildə bu göstərici hüquqi şəxslər üzrə 87090, fiziki şəxslər üzrə isə 552775 olmuşdur. Naxçıvan iqtisadi rayonunda hüquqi təsərrüfat subyektlərinin sayı 1841, fiziki təsərrüfat subyektlərinin sayı isə 2014-cü ilin əvvəlinə 15065 təşkil etmişdir. Son illərdə ölkədə sahibkarlığın inkişafına və biznes şəraitinin yaxşılaşdırılmasına münbit mühitin formalaşdırılması üçün işlənib-hazırlanan və həyata keçirilən dövlət dəstəyi mexanizmləri regionlarda təsərrüfat subyektlərinin inkişafına əlavə imkanlar yaratmışdır. Təsərrüfat subyektlərinin fəaliyyətinin və əhatə dairəsinin genişlənməsi isə "özəl sektor - dövlət" qarşılıqlı münasibətlərinin və əməkdaşlığının gücləndirilməsinə təkan verməklə yanaşı, yerli potensialın hərəkətə gətirilməsində və sosial infrastruktur şəbəkəsinin imkanlarının artırılmasında səmərəlili fayda verməkdədir. Bunlarla belə, regionlarda iqtisadi fəallıq, təsərrüfat subyektlərinin işinin gücləndirilməsi, bu resursların regionun sosial-iqtisadi inkişafına cəlb edilməsi, eyni zamanda, sosial infrastruktur şəbəkəsinin potensialının gücləndirilməsində əlavə imkanların formalaşdırılması məsələləri üzrə istifadə olunmayan ehtiyatlar, o cümlədən, resurs potensialından zəif istifadə halları vardır.

Regionlarda sosial-iqtisadi inkişafın sürətləndirilməsində və bunlarla bərabər sosial infrastruktur şəbəkəsinin genişləndirilməsində iqtisadiyyatın müxtəlif sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər önəmli əhəmiyyət dışıyır. Ölkəmizin regionları üzrə əsas kapitala yönəldilmiş vəsaitlər barəsində məlumatlar Cədvəl 2-də verilmişdir.

*Cədvəl 2*

**Azərbaycanın regionları üzrə əsas kapitala yönəldilmiş vəsaitlər (mln. manatla)**

| | 2005 | 2010 | 2013 | 2015 |
|---|---|---|---|---|
| Ölkə üzrə | 5769,8 | 9905,7 | 17850,8 | 25857,2 |
| Bakı | 5098,7 | 6781,4 | 10744,1 | 12145,1 |
| İqtisadi rayonlar | | | | |
| Abşeron | 135,5 | 119,0 | 581,5 | 689,2 |
| Gəncə-Qazax | 69,5 | 420,5 | 946,6 | 1002,7 |
| Şəki-Zaqatala | 16,0 | 183,5 | 653,8 | 755,7 |
| Lənkəran | 92,7 | 133,8 | 286,4 | 384,2 |
| Quba-Xaçmaz | 34,2 | 556,1 | 487,7 | 569,2 |
| Aran | 118,2 | 557,4 | 1498,2 | 1601,8 |
| Yuxarı Qarabağ | 42,6 | 85,0 | 57,1 | 61,9 |
| Kəlbəcər-Laçın | 0,69 | 0,77 | 0,22 | 0,23 |
| Dağlıq Şirvan | 26,5 | 183,2 | 152,5 | 154,5 |
| Naxçıvan | 126,1 | 501,1 | 1037,7 | 1038,5 |

Cədvəl 2-nin təhlilinə baxsaq, görərik ki, 2005-2015-ci illər ərzində Azərbaycanın regionları üzrə əsas kapitala yönəldilmiş vəsaitlər 3,1 dəfə artmış və 2013-cü ilin yekununda 17,9 milyard manata, 2015-ci ildə isə 25857,2 mln.manata yaxın olmuşdur. Bu vəsaitin 10,7 milyardı və yaxud 59,8 %-i Bakı şəhərinin payına düşmüşdür. Bu baxımdan ölkə regionlarının mərkəzi şəhərlərlə iqtisadi inkişaf, sosial-iqtisadi inkişaf və sosial infrastrukturun inkişafı səviyyəsi baxımından mövcud fərqlərinin aradan qaldırılması istiqamətində komplekslilik tələb edən daha mütərəqqi, daha məhsuldar, yeni tənzimlənmə mexanizmlərinin işlənib hazırlanması və onların təkmilləşdirilməsi lazım gəlir. Bu halda regionlarda aşağıdakı prinsipial məsələlərin həlli daha qabarıq görünür:

- regionlarda mövcud ictimai, siyasi, sosial-iqtisadi durumun sabitliyi təmin edilməklə sosial infrastruktur sahələrinin kompleks inkişafını tənzimləmək;
- region əhalisinin həyat səviyyəsinin getdikcə yüksəldilməsi əsasında mədəni-məişət şəraitinin daha da yaxşılaşdırılması;
- iqtisadiyyatda baş vermiş köklü struktur, keyfiyyət dəyişikliklərinə uyğun müvafiq sosial infrastruktur sahələrin formalaşdırılması və inkişaf etdirilməsi və s.

**7. Regional sosial infrastrukturun resurs potensialından istifadənin vəziyyəti və idarəedilməsi problemləri.** Bazar iqtisadiyyatı şəraitində ölkə regionlarında sosial infrastruktur sahələrinin kompleks inkişafının təmin edilməsində dövlətin ən əsas vəzifələrindən biri də

sosial infrastruktura daxil olan sahələrin qarşılıqlı fəaliyyətinin dərindən öyrənilməsi, bu sahələrin səmərəliliyinin artırılması, onların potensialından səmərəli istifadə edilməsidir. Azərbaycanda sosial infrastruktur sahələrinin əhatə etdiyi fəaliyyət dairəsinin və sahələrin təxmini təsnifatı Şəkil 2-də verilmişdir.




***Şəkil 2. Azərbaycanda sosial infrastruktur sahələrinin əhatə etdiyi fəaliyyət dairəsinin və sahələrin təxmini təsnifatı***

Şəkil 2-dən göründüyü kimi, bölgü, mübadilə, istehlak xidmətləri, əhalinin sağlamlığının mühafizəsi və s. sahələr bir-birinə qarşılıqlı əlaqədar olmaqla bir kompleks formasını - sosial infrastruktur sistemini təşkil edir. Bazar iqtisadiyyatı şəraitində bu sahələrin inkişafının səmərəli əlaqələndirilməsi ilə yanaşı, bütövlükdə, sosial infrastruktur sisteminin kompleksliliyinin tənzimlənməsi dövlətin ən başlıca məqsədlərindən biri kimi xarakterizə olunur. Sosial infrastrukturun əsas səciyyəvi cəhətlərinə aşağıdakıları aid etmək olar:

– konkret fəaliyyət növü ilə məşğul olan insanlara xas olan, alt mikroinfrastrukturun - əmək, iş, istirahət və müvafiq xidmətlərin təşkili və həyata keçirilməsi;
– müəssisələr səviyyəsində sosial infrastrukturun kompleksliliyinin təmin edilməsi;
– ölkə və ölkədaxili regionlarda əhalinin məşğulluğunun tənzimlənməsi əsasında, onların həyat səviyyəsinin yüksəldilməsi və s.

Qeyd edək ki, 2004-2014-cü illərdə ölkə üzrə cəmi mənzil fondu 28,5 % artdığı halda, bu göstərici şəhər mənzil fondu üzrə 38,8 %, kənd mənzil fondu üzrə isə 23, 9 % təşkil etmişdir. Bu onu göstərir ki, regionlarda mənzil fondu potensialının və resurslarının artırılması üzrə işlərlə şəhərlər arasındakı fərq hələ də xeyli yüksək olaraq qalır. Cədvəl 3-də isə Azərbaycanın regionları üzrə mənzil fondunun ümumi göstəriciləri əks olunmuşdur.

*Cədvəl 3.*

**Azərbaycanın regionları üzrə mənzil fondunun ümumi göstəriciləri**

| | 2010 (ilin əvvəlinə, min.m$^2$) | | | 2014 (ilin əvvəlinə, min.m$^2$) | | |
|---|---|---|---|---|---|---|
| | bütün mənzil fondu | o cümlədən: | | bütün mənzil fondu | o cümlədən: | |
| | | dövlət mülkiyyəti | özəl mülkiyyət | | dövlət mülkiyyəti | özəl mülkiyyət |
| ölkə üzrə | 156906,3 | 8981,1 | 147924,9 | 166387,0 | 9894,8 | 156492,2 |
| Bakı | 36043,0 | 3748,4 | 32294,6 | 37818,7 | 3746,5 | 34072,2 |
| İqtisadi rayonlar: | | | | | | |
| Abşeron | 8818,7 | 1084 | 7734,7 | 9345,9 | 1105,3 | 8236,6 |
| Gəncə-Qazax | 23744,2 | 986,8 | 22757,4 | 25167,0 | 1021,4 | 24145,6 |
| Şəki-Zaqatala | 10755,9 | 134,1 | 10621,8 | 11390,8 | 436,2 | 10954,6 |
| Lənkəran | 14634,1 | 201,8 | 14432,3 | 15731,9 | 336,3 | 15395,6 |
| Quba-Xaçmaz | 9893,5 | 228,9 | 9664,6 | 10380,8 | 230,8 | 10150,0 |
| Aran | 34293,5 | 1803,7 | 32489,8 | 36040,5 | 2142,4 | 33898,1 |
| Yuxarı Qarabağ | 3526,5 | 489,5 | 3037 | 3649,9 | 514,8 | 3135,1 |
| Dağlıq Şirvan | 5432,8 | 114,7 | 5318,1 | 5578,0 | 118,2 | 5459,8 |
| Naxçıvan | 9763,8 | 189,2 | 9574,6 | 11283,5 | 238,9 | 11044,6 |

Cədvəl 3-ə nəzər salsaq, görərik ki, Bakı şəhəri üzrə ümumi mənzil fondu 2010-cu ilin əvvəlinə 36 mln m$^2$ , bu rəqəm 2014-cü ilin əvvəlinə

37,8 mln $m^2$ olmuşdur. Başqa sözlə, artım 5,0 % təşkil etmişdir. Bölgələrdə isə həmin dövr ərzində ümumi mənzil fondunun artım tempi Abşeron iqtisadi rayonu üzrə 5,7 %, Gəncə-Qazax – 6,3 %, Şəki-Zaqatala – 5,6 %, Lənkəran – 7,5 %, Quba-Xaçmaz – 5,0 %, Aran – 5 %-ə yaxın, Yuxarı Qarabağ, – 2,9%, Dağlıq Şirvan – 3,7 % və Naxçıvan iqtisadi rayonunda 15,3 % təşkil etmişdir. Göründüyü kimi, bölgələrin əksəriyyətində ümumi mənzil fondun artım tempi Bakı şəhərinə nisbətən geri deyildir və bəzi regionlarda bu göstərici yüksəkdir. Ölkənin regionlarında bu tendensiyanın güclənməsi əhalinin mənzillə təminatını yaxşılaşdırmaqla bərabər, regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə və regiondakı resurs potensialından daha səmərəli istifadəyə əlavə imkanlar yaradır.

Ölkənin şəhər və kənd yerlərində ümumi rabitə göstəriciləri Cədvəl 4-də verilmişdir.

***Cədvəl 4.***

**Azərbaycanda telefon rabitəsi göstəriciləri**

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| ATS-lərin sayı, ədəd | 1190 | 1394 | 1429 | 1555 | 1613 | 1634 | 1790 |
| Əsas telefon aparatlarının sayı, min nömrə | 1094,2 | 1439,6 | 1466,1 | 1456,6 | 1470,4 | 1485,3 | 1467,7 |
| -şəhər yerlərində | 904,1 | 1150,1 | 1171,8 | 1165,0 | 1172,6 | 1186,1 | 1180,2 |
| -kənd yerlərində | 190,1 | 289,5 | 294,3 | 291,6 | 297,8 | 299,2 | 287,5 |
| Mənzillərdə olan telefon aparatları, min nömrə | 1002,5 | 1289,6 | 1317,4 | 1331,3 | 1346,1 | 1372,6 | 1358,3 |
| -şəhər yerlərində | 818,2 | 1014,2 | 1033,1 | 1047,7 | 1058,8 | 1083,2 | 1079,1 |
| -kənd yerlərində | 184,3 | 275,4 | 284,3 | 283,6 | 287,3 | 289,4 | 279,2 |
| Mobil telefon nömrələrinin sayı, min nömrə | 2242,0 | 8938,7 | 9396,5 | 9634,6 | 9720,6 | 10101,9 | 10697,3 |
| Əhalinin hər 100 nəfərinə telefon aparatları, ədəd | 13 | 16 | 17 | 17 | 17 | 17 | 15 |
| Hər 100 ailəyə düşən telefon aparatları, ədəd | 55 | 67 | 67 | 67 | 68 | 69 | 67 |
| -şəhər yerlərində | 84 | 95 | 96 | 96 | 97 | 97 | 97 |
| -kənd yerlərində | 23 | 32 | 32 | 31 | 32 | 32 | 31 |
| Əhalinin hər 1000 nəfərinə düşən mobil telefon nömrələri, nömrə | 264 | 987 | 1038 | 1050 | 1046 | 1059 | 1123 |
| internet qoşulmaların sayı, qoşulma | 76551 | 290025 | 323553 | 440100 | 660110 | 710400 | 750530 |

Cədvəl 4-ün təhlilinə əsaslansaq, qeyd etmək mümkündür ki, 2005 – 2015-ci illər ərzində kənd yerlərində əsas telefon aparatlarının sayı 56,7 % artaraq, 2013-cü ilin yekununda 287,5 min nömrə təşkil etmişdir. Maraqlıdır ki, bu dövr ərzində şəhər yerlərində əsas telefon aparatlarının sayı cəmi 29,7 % artmış və 2013-cü ilin yekununda 1180,2 min nömrə olmuşdur. Göründüyü kimi, şəhər yerləri ilə kənd yerləri arasında fərqlər bu sahədə xeyli azalmışdır. Başqa bir misal, əgər 2005-ci ildə hər 100 ailəyə düşən telefon aparatlarına görə kənd yerlərində cəmi 23 ədəd idisə, bu göstərici 2015-ci ildə 31 ədəd təşkil etmişdir və s.

Sosial infrastrukturun idarəedilməsi dedikdə, hər şeydən öncə sosial ictimai istehsal üçün zəruri olan əsas şərtlərdən biri kimi, ölkənin, o cümlədən regionların mövcud sosial-iqtisadi potensialından daha səmərəli istifadə və idarəedilməsi əsasında infrastrukturun geniş təkrar istehsalı başa düşülür. Müasir bazar iqtisadiyyatı şəraitində bu mühüm problemin öyrənilməsini və reallaşdırılmasını dövlət və onun regionlarda olan müvafiq strukturları həyata keçirirlər. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafını müəyyənləşdirən və sosial infrastrukturun zəruriliyini şərtləndirən ən mühüm amillərə aşağıdakıları aid etmək olar:

- sosial infrastrukturun mövcud inkişaf səviyyəsi;
- demoqrafiya, məşğulluq və kadr hazırlığı;
- ekoloji vəziyyət və onun tənzimlənməsi;
- əhalinin sosial müdafiəsi və sosial təminatın tənzimlənməsi və s.

Qeyd edək ki, dünya təcrübəsində dövlət, regional idarəetmə orqanları aşağıdakı forma və ardıcıllıqlarda təsnifləşdirilir:

- hakimiyyət strukturlarının məqsəd və vəzifələri üzrə: qanunverici, dövlət, icraedici orqanları və nəzarət strukturlarıdır;
- mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş səviyyələrindən asılı olaraq idarəetmə orqanları mərkəzi və yerli idarəetmə strukturlarına ayrılmış olur;
- dövlət idarəetmə strukturlarının fəaliyyət xarakterinə və hüquq dərəcəsinə görə ümumi kompetensiyalı, sahə idarəetmə, sahələrarası funksional orqanlarına bölünür.

Qeyd edək ki, regional sosial-iqtisadi inkişafın idarəedilməsi, Azərbaycan Respublikasının Konstitusiyası əsasında, Milli Məclis tərəfindən hazırlanmış müvafiq qanunlar və ölkə Prezidentinin Sərəncam və Fərmanları əsasında həyata keçirilir. İdarəetmənin regional, sahəvi, sahələrarsı qaydaları mərkəzi və yerli orqanları tərəfindən həll edilir. Yerli icra hakimiyyəti orqanları, inzibati-ərazi - şəhər, qəsəbə, rayon,

kənd səviyyələrində idarəetmə funksiyaları yerinə yetirmiş olurlar. Hər bir konkret regionda icra hakimiyyəti orqanlarının strukturu, təşkilati formaları, ərazinin böyüklüyündən, əhalinin sayından və istehsal istiqamətlərindən, onun strukturundan, sosial infrastruktur sahələrinin inkişafından asılı olaraq müəyyənləşdirilir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş yeni "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamə qüvvəyə minmişdir. Bundan əlavə, son illərdə bələdiyyələrin özünümailiyyələşdirmə problemlərinə, onların büdcələrinin gəlirlərinin və xərclərinin formalaşdırılması məsələlərinə diqqət xeyli artmışdır. Ümumiyyətlə, bu proseslər zəif getsə də, yerli idarəetmə orqanları kimi bələdiyyələrin rolu tədricən artmaqdadır. Ölkə Prezidentinin 29 dekabr 2009-cu il tarixli Fərmanı ilə "Bələdiyyələrin dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında" Əsasnamə təsdiq edirilmişdir. Bundan əlavə, ölkə Prezidentinin Fərmanı ilə 17 iyun 2003-cü il tartixdən Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Şübhəsiz, bu qanunların və onlarda nəzərədə tutulmuş mexanizmlərin, tədbirlərin qismən də olsa, reallaşdırılması bələdiyyələrin maliyyə resurslarına çıxışını intensivləşdirmişdir.

Qeyd edək ki, dövlət sosial infrastruktur və onun idarə edilməsi üzrə prioritetləri müəyyənləşdirərkən, bir sıra meyarları nəzərə almalıdır:

- bu sahədə milli strategiyanın formalaşdırılması;
- sosial infrastrukturu idarəetmə orqanlarının səlahiyyət bölgüsünün dəqiqləşdirirlməsi və yerli idarəetmə orqanlarının bu proseslərdə rolunun gücləndirilməsi;
- optimal sosial infrastruktur standartlarının işlənib hazırlanması və reallaşdırılması;
- məqsədli proqramların reallaşdırılmasında yerli idarəetmə orqanlarının fəal iştirakının təmin edilməsi;
- Azərbaycanda əsas yerli idarəetmə orqanı olan bələdiyyələrin yerli icra hakimiyyətləri ilə müqayisədə sosial infrastrukturun idarə-edilməsində səlahiyyətləri və funksiyaları dəqiq müəyyənləşdiril-məli, bu məsələlərin qanunvericilik bazası hazırlanmalı, müvafiq qanunlar qəbul edilməli, praktiki prosesləri nizamlaya biləcək dövlət mexanizmləri ilə yanaşı, yerli idarəetmə orqanlarının sərəncamında olan mexanizmlər müəyyənləşdirilməli, bütövlükdə bu proseslərin dövlət tənzimlənməsi təkmilləşdirilməlidir və s.

**8. Elm-təhsil, səhiyyə və turizm sahələrində sosial infrastrukturun mövcud vəziyyəti.** Sosial infrastruktur sahələrində, xüsusilə, elm, təhsil və səhiyyə sistemlərində səmərəli innovasiya texnologiyasının seçilməsi və tətbiq edilməsi problemlərinə xüsusi əhəmiyyət verilməlidir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunmuşdur ki, ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqçıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Məlum olduğu kimi, təhsil sistemi vahid bir orqanizm təşkil etməklə, onun təsir dairəsi genişdir. Mülkiyyət formalarından asılı olmayaraq, təhsildə sistemlilik prinsipini, xüsusilə, onun cəmiyyətdə tutduğu yeri, rolu və əhəmiyyətini düzgün qiymətləndirmək lazımdır. Cədvəl 5-də Azərbaycanın regionları üzrə 2013/2014-cü tədris ilinin əvvəlinə dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisələrinin göstəriciləri verilmişdir.

*Cədvəl 5.*

**Azərbaycanınregionları üzrə 2015/2016-cı tədris ilinin əvvəlinə dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisələri**

| | Müəssisə-lərin sayı | Şagirdlərin sayı (min nəfər) | II və ya III növbələrdə oxuyanların xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| Ölkə üzrə cəmi | 4462 | 1353 | 14,5 |
| Bakı şəhəri | 367 | 538,7 | 17,8 |
| İqtisadi rayonlar: | | | |
| Abşeron | 103 | 41 | 30,1 |
| Gəncə-Qazax | 629 | 157,3 | 11,2 |
| Şəki-Zaqatala | 382 | 81,2 | 7,4 |
| Lənkəran | 89 | 30 | 15,3 |
| Quba-Xaçmaz | 521 | 77,1 | 19,1 |
| Aran | 1032 | 255,9 | 13,2 |
| Yuxarı Qarabağ | 445 | 55,7 | 17,5 |
| Kəlbəcər – Laçın | 353 | 33,9 | 32,1 |
| Dağlıq Şirvan | 284 | 37,3 | 9,1 |
| Naxçıvan | 257 | 44,9 | 1,2 |

Cədvəl 5-dən göründüyü kimi, ölkə üzrə dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisələrinin ümumi sayında Bakı şəhərinin payı – 367 və ya 8,3 % təşkil edir. Bu müəssisələrdə şagirdlərin sayı baxımından isə ölkə üzrə 1353,1 min nəfər şagirdin 27,9 %-i Bakı şəhərinin payına düşür. Göründüyü kimi, ölkənin dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisələrinin əksəriyyəti regionlarda yerləşir. Bakı şəhərində II və ya III növbələrdə oxuyanların sayı 17,8 min nəfər təşkil etdiyi halda, bəzi regionlarda, məsələn, Abşeron iqtisadi rayonunda bu göstərici 29,2 min nəfər, Lənkəran iqtisadi rayonunda - 16,8 min nəfər, Quba-Xaçmazda - 17,8 min nəfər, Yuxarı Qarabağda - 16,4 min nəfər və s. təşkil etmişdir. Bu göstəricilər nəzərə alınmaqla, dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisələrinin infrastrukturunun gücləndirilməsi zərurəti bir daha qabarıq görünür.

Cədvəl 6-da isə Azərbaycanın regionları üzrə 2013-2014-cü tədris ilinin əvvəlinə dövlət və qeyri – dövlət orta ixtisas təhsilli müəssisələri barədə göstəricilər verilmişdir.

*Cədvəl 6.*

**Azərbaycanın regionları üzrə 2015-2016-cü tədris ilinin əvvəlinə dövlət və qeyri-dövlət orta ixtisas təhsili müəssisələri**

| | Müəssisə-lərin sayı | Qəbul olunanlar (nəfər) | Tələbələr (nəfər) | Bitirənlər (nəfər) |
|---|---|---|---|---|
| Ölkə üzrə cəmi | 61 | 20168 | 56460 | 16400 |
| Bakı şəhəri | 21 | 9361 | 29221 | 5649 |
| İqtisadi rayonlar: | | | | |
| Abşeron | 5 | 1019 | 3121 | 761 |
| Gəncə-Qazax | 6 | 1996 | 3065 | 1191 |
| Şəki-Zaqatala | 5 | 809 | 1600 | 576 |
| Lənkəran | 3 | 1131 | 1938 | 581 |
| Quba-Xaçmaz | 1 | 272 | 927 | 169 |
| Aran | 9 | 3721 | 11565 | 2191 |
| Yuxarı Qarabağ | 5 | 937 | 2158 | 637 |
| Dağlıq Şirvan | 2 | 381 | 1241 | 297 |
| Naxçıvan | 4 | 521 | 1621 | 351 |

Cədvəl 6-nın təhlilinə istinadən, qeyd etmək olar ki, ölkə üzrə 61 dövlət və qeyri-dövlət orta ixtisas təhsili müəssisələrinın 21-i və yaxud 36,8 %-i Bakı şəhərindədir, digərləri isə regionlarda fəaliyyət göstərirlər.

Dövlət və qeyri-dövlət orta ixtisas təhsili sistemi dərindən araşdırılmalı, bu sahədə daha yeni, mütərəqqi, məhsuldar praktiki prosesləri səmərəli olan mexanzimlər formalaşdırılmalı və reallaşdırılmalıdır.

Qeyd etmək lazımdır ki, elm və təhsilin maddi-texniki bazasının, bunlarla bağlı sosial infrastruktur şəbəkəsinin gücləndirilməsi üzrə fikir və mülahizələrin əksəriyyətində bu sahələrin inkişafı ilə bağlı prinsipial tənzimlənmə mexanizmlərində dövlətin rolu və iştirakı birmənalı şəkildə ən fəal sürətdə tələb olunan kimi qiymətləndirilir. Təhlillərə və müxtəlif elmi yanaşmalara əsaslansaq, bir qrup məsələlərin vacibliyini qeyd etmək olar:

- ölkə üzrə elm və təhsilin strateji hədəfləri müəyyənləşdirilərkən, regional inkişaf prioritetləri və meyarları ciddi nəzərə alınmalı, qorunmalıdır;
- regionlarıda təhsilin sosial infrastrukturunun gücləndirilməsi yerli idaretmə orqanlarının və icra strukturlarının fəaliyyətinin əsas istiqamətlərindən biri kimi bazar iqtisadiyyatı prinsiplərinin nəzərə alınması şərtı ilə yeni reallıqlar baxımından tənzimlənməli və təkmilləşdirilməlidir;
- regionlarda elm və elmi tədqiqata marağın artırılması, burada olan resurs potensialının istifadəsində, bu sahənin rolunun və fəaliyyətinin gücləndirilməsi üzrə dövlətin daha sistemli, geniş əhatəli tənzimlənmə mexanizmləri işlənib hazırlanmalı və həyata keçirilməlidir.

Cəmiyyətin sağlamlığı sosial-iqtisadi inkişafın aparıcı indikatoru olmaqla, ictimai istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsində həlledici rola və əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, ölkədə səhiyyə sisteminin maddi-texniki bazası da günün müasir tələblərindən geridə qalır. Düzdür, Bakı və iri şəhərlərdə müasir texnologiyalar əsaslı çoxlu sayda klinikalar, tibb mərkəzləri açılmışdır, amma buradakı xidmətlər regionda yaşayan əhali təbəqəsi üçün o qədər də əlçatan deyildir. Son illərdə regionlarda da müasir xəstəxanalar, tibb mərkəzləri şəbəkələrinin sayı artmaqdadır. Bununla belə, regionlarda tibbi idarə və təşkilatların ümumi inkişaf səviyyəsi və xüsusilə onun müasir vəziyyəti, əhalinin tibbi xidmətlərə artan tələbatını tam ödəmir. Regionlarda hələ də çoxlu sayda xəstəxana və poliklinikaların müvafiq avadanlıqlarla – elektrokardioqram, fizioterapevtik, rentgen-diaqnostika və digər mühüm avadanlıqlarla təminatı aşağı səviyyədə qalır. Bundan əlavə, ciddi problemlərdən biri də səhiyyə sahəsində regionlararası mövcud fərqlərin tədricən tənzimlənməməsidir. Əgər ölkə üzrə 01.01.2004-cü ilə

xəstəxanaların ümumi sayı 711 idisə, 01.01.2014-cü ilə bu rəqəm 553 olmuşdur. Həmin dövr ərzində ölkə üzrə ambulator-poliklinikalarının sayı müvafiq olaraq, 1567 və 1744 təşkil etmişdir. Göründüyü kimi, xəstəxanaların sayında azalma olmasına baxmayaraq, ambulator-poliklinikaların sayında 5,3 % artım olmuşdur. Ölkə üzrə 01.01.2014-cü il tarixə mövcud 553 xəstəxanadan 135-i və yaxud 24,4 %-i Bakı şəhərinin payına, 43-ü və yaxud 7,8 %-i Naxçıvan MR-in payına, 19-u və yaxud 3,4 %-i Sumqayıt şəhərinin payına, 18-i və yaxud 3,3 %-i Gəncə şəhərinin payına və s. düşür. 01.01.2014-cü il tarixə ölkədə 1744 mövcud ambulator-poliklinikalardan 293-ü və yaxud 16,8 %-i Bakı şəhərinin payına, 119-u və yaxud 6,8 %-i Naxçıvan MR-in payına, 34-u və yaxud 1,9 %-i Sumqayıt şəhərinin payına, 32-i və yaxud 1,8 %-i Gəncə şəhərinin payına, 38-i və yaxud 2,2 %-i Cəlilabad rayonunun payına, 38-i və yaxud 2,2 %-i Sabirabad rayonunun payına, 47-si və yaxud 2,7 %-i Lənkəran rayonunun payına, 36-ı və yaxud 2,1 %-i Tovuz rayonunun payına və s. düşür. Ölkə regionlarda, xüsusilə, ucqar ərazilərdə, dağ kəndlərində səhiyyənin sosial infrastrukturunun qurulması proseslərinin intensivləşdirilməsi və səmərəli təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi vacib zərurət olaraq qalmaqdadır.

Azərbaycanda turizm və onun infrastrukturunun inkişafında bir sıra amillər mühüm əhəmiyyət daşıyır. Bunların içərisində mehmanxana və mehmanxana tipli müəssisələrin güclü maddi-texniki bazasının olması vacib şərtlərdəndir. Fikrimizcə, bu sahələrdə mövcud infrastruktur, xüsusilə, onun sosial təyinatlı istiqamətlərinə, yəni sosial infrastruktur şəbəkəsinin genişləndirilməsinə daha kompleks şəkildə diqqət yetirilməli, bu sahənin bütövlükdə turizm sektorunun digər sahələri ilə qarşılıqlı əlaqəli fəaliyyət elementləri nəzərə alınmaqla, təkmilləşdirilməsinə baxılmalıdır və s.

**9. Ölkə regionlarında ictimai-kütləvi sosial infrastruktur reallıqları.** Sosial infrastrukturun mühüm tərkib sahələrindən bir qrupu ictimai-kütləvi xarakter daşıyır, əhaliyə məişət xidməti sahələrini, mədəniyyət və incəsənət obyektlərini əhatə edir. Sosial infrastruktur sistemində əhalinin xidmətlər səviyyəsinin getdikcə yaxşılaşdırılması problemləri dövlət siyasətinin mühüm istiqamətlərindən hesab olunur. Xidmət sahələrinə ictimai-iaşə, məişət xidmətləri və s. daxildir. Cədvəl 7-də Azərbaycanın regionlarında əhaliyə göstərilən məişət xidmətlərinin həcmi əks olunmuşdur.

*Cədvəl 7.*

**Azərbaycanın regionlarında əhaliyə göstərilən məişət xidmətlərinin həcmi (mln. man)**

| | 2008 | 2010 | 2013 | 2015 |
|---|---|---|---|---|
| Ölkə üzrə cəmi | 483,6 | 610,6 | 763,2 | 767,1 |
| Bakı şəhəri | 313,8 | 393,8 | 468,1 | 466,2 |
| İqtisadi rayonlar: | | | | |
| Abşeron | 13,6 | 18,2 | 22,1 | 22,9 |
| Gəncə-Qazax | 33,3 | 41,8 | 51,8 | 52,1 |
| Şəki-Zaqatala | 13,0 | 16,5 | 21,2 | 22,1 |
| Lənkəran | 22,3 | 27,5 | 33,1 | 34,1 |
| Quba-Xaçmaz | 12,5 | 15,7 | 24,5 | 25,6 |
| Aran | 48,9 | 62,5 | 88,4 | 89,1 |
| Yuxarı Qarabağ | 4,2 | 5,2 | 6,7 | 6,8 |
| Kəlbəcər-Laçın | | | | |
| Dağlıq Şirvan | 6,5 | 8,2 | 10,9 | 11,1 |
| Naxçıvan | 13,5 | 21,3 | 36,4 | 37,1 |

Cədvəl 7-yə nəzər salsaq, qeyd etmək olar ki, 2008-2013-cü illər ərzində ölkə üzrə əhaliyə göstərilən məişət xidmətlərinin həcmi 57,8 % artaraq, 2013-cü ilin yekununda 763,2 mln. manat olmuşdur. 2015-ci ildə isə 767,1 manat olmuşdur. Bakı şəhərinin payı 468 mln. manat və yaxud 61,34 % təşkil etmişdir.

Ölkə regionlarında ictimai xarakter daşıyan sosial infrastruktur şəbəkələrindən mühümlüyü ilə fərqlənənlərdən biri də ictimai iaşə obyektləridir. Bazar iqtisadiyyatı şəraitində dövlət mülkiyyəti formasında fəaliyyət göstərən ictimai iaşə infrastrukturunun əksər hissəsi ya özəlləşdirilmiş, ya da yararsız hala düşmüşdür. Bu baxımdan müasir dövrdə bu mühüm xidmət sahəsinin yeni tənzimləmə mexanizmləri üzərində qurulması lazım gəlir. Cədvəl 8-də Azərbaycanın regionlarında iaşə dövriyyəsinin həcmi əks olunmuşdur. Cədvəl 8-dən göründüyü kimi, 2013-cü ilin yekununa görə ölkə üzrə ümumi iaşə dövriyyəsində Bakı şəhərinin payı 499 mln. manat və yaxud 62,4 %, 2015-ci ildə 811,8 mln. manat təşkil etmişdir. Buradan belə nəticəyə gəlmək olar ki, ölkə regionlarının ictimai iaşə xidməti üzrə sosial infrastruktur müəssisələrinin fəaliyyəti hələlik mərkəzi şəhərlərlə müqayisədə xeyli geri qalır. Bu baxımdan regionlarda ictimai iaşənin sosial infrastrukturunun gücləndirilməsi proseslərində regionlararası fərqlər də nəzərə alınmaqla, çox iş görülməlidir.

*Cədvəl 8.*

**Azərbaycanın regionlarında iaşə dövriyyəsinin həcmi (mln. manatla)**

| | 2008 | 2010 | 2013 | 2015 |
|---|---|---|---|---|
| Ölkə üzrə cəmi | 290,6 | 417,8 | 800,1 | 1111,2 |
| Bakı şəhəri | 160,6 | 231,1 | 499,0 | 80,1 |
| İqtisadi rayonlar: | | | | |
| Abşeron | 14,9 | 20,8 | 33,5 | 34,9 |
| Gəncə-Qazax | 23,6 | 34,5 | 51,9 | 52,8 |
| Şəki-Zaqatala | 4,8 | 11,1 | 18,5 | 19,7 |
| Lənkəran | 13,3 | 17,5 | 26,4 | 27,3 |
| Quba-Xaçmaz | 9,5 | 13,4 | 23,4 | 24,1 |
| Aran | 39,5 | 56,3 | 85,9 | 86,1 |
| Yuxarı Qarabağ | 1,7 | 2,24 | 3,2 | 3,4 |
| Kəlbəcər-Laçın | | | | |
| Dağlıq Şirvan | 5,8 | 8,3 | 13,8 | 14,7 |
| Naxçıvan | 14,2 | 22,6 | 44,5 | 47,2 |

Regionlarda ictimai-kütləvi sosial infrastruktur şəbəkəsinin müasir vəziyyətinə dair aparılan təhlillər, bu sahədəki spesifik xüsusiyyətlər, mövcud problemlər və onların həlli yolları üzrə mülahizələri ümumiləşdirsək, qeyd etmək olar ki, bu sahələrdə daha effektiv və səmərəli sosial infrastruktur bazasının formalaşdırılması və inkişafı üçün müasir tələbləri özündə ehtiva edən mexanzimlərin hazırlanması üçün dövlət tənzimlənməsinin gücləndirilməsi və təkmilləşdirilməsinin intensivləşdirilməsi tədbirlərinin sürətləndirilməsi vacib olaraq qalmaqdadır.

**10. Regionlarda sosial infrastrukturun inkişaf meyarları və amilləri.** Sosial infrastruktur sahələrinin fəaliyyəti müxtəlif sosial-iqtisadi vəzifələrin həyata keçirilməsi ilə bağlıdır. Sosial infrastrukturun inkişafı ilə bağlı amillərin əksər hallarda ciddi və obyektiv qiymətləndirilməsi, həmçinin tənzimlənmə mexanzimlərinin reallaşdırılması zamanı nəzərə alınması vacib şərtlər kimi xarakterizə olunurlar.

Məlumdur ki, cəmiyyət inkişaf etdikcə sosial infrastrukturun, xüsusilə təhsilin səviyyəsinə və iş qüvvəsinin inkişafına olan tələblər də artır. Belə ki, elmi-texniki yaradıcı əməyin, əməkçilərin innovasiyalı, yaradıcı potensialından sosial-iqtisadi inkişafın əsas amilinə çevrilmiş olur. Dünya təcrübəsi göstərir ki, təhsil və səhiyyə sahələri müasir dövrdə ayrılaraq iqtisadiyyatın müstəqil sahələrinə çevrilmişdir. Təhsil

sistemində formalaşan münasibətlər bir qrup istiqamətlər üzrə - məktəbəqədər təlim-tərbiyə ocaqları, ümumorta təhsil məktəbləri, ixtisas kollecləri və ali təhsil ocaqlarının fəliyyəti ilə bağlı zəruri və səmərəli sosial infrastruktur sisteminin yaradılmasını şərtləndirir, eyni zamanda bu proseslərin inkişafının sürətləndirilməsini tələb edir.

Sosial infrastrukturun inkişafının sürətləndirilməsində və səmərəliliyinin yüksəldilməsində səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması əsas amillərdəndir. Qeyd etmək lazımdır ki, hələ 1997-ci ildə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Qanunda əhalinin bir sıra təbəqələrinə, o cümlədən təqaüdçülərə maddi imkansızlara pulsuz tibbi yardım, vətəndaşların sağlamlığına vurulmuş ziyanın ödənilməsi, hüquqa zidd hərəkətlər nəticəsində zərər çəkənlərə tibbi yardım göstərilməsi üzrə xərclərin ödənilməsi, peşə fəaliyyətinin bəzi növləri ilə məşğul olan vətəndaşların sağlamlığının qorunması və s. kimi zəruri məsələlər öz əksini tapmışdır. Son 20 il ərzində ölkənin müxtəlif rayonlarında müasir tipli tibbi avadanlıqlar ilə təchiz edilmiş xəstəxanalar, diaqnostika mərkəzləri, ambulatoriya-poliklinika müəssisələri tikilib istifadəyə verilmişdir. Lakin səhiyyənin səmərəliliyini hər hansı bir göstərici ilə qiymətləndirmək olmaz. Belə ki, bu müalicəvi, sanatoriya-profilaktika, sosial və iqtisadi amilləri nəzərə almaqla səhiyyə xidmətlərinin və onların bölmələrinin fəaliyyətinin son nəticəsinin qiymətləndirilməsinin də daxil olduğu parametrlər məcmusunu əks etdirməlidir. Səmərəliliyin sosial cəhəti, bir qayda olaraq insanların sağlamlığa və tibbi xidmətlərə olan real tələbatının ödənilməsi, iş şəraitinin sağlamlaşdırılması, sanotoriya-epidemioloji normaların təminatı və s. kompleks amilləri nəzərə almaqla təmin edilə bilər.

Sosial infrastukturun regional səviyyədə inkişafının sürətləndirilməsini şərtləndirən amillərin ən mühümlərini ümumiləşdirməyə çalışsaq, bunları qeyd etmək olar:

- təyinatından asılı olmayaraq sosial infrastruktur obyekti vacib zərurətdən yaradılır və istismara verilir;
- region əhalisinin sosial xidmətlərə olan tələbatlarının daim artığı bir şəraitdə, sosial infrastruktur müəssisələrinin sayının artırılması və xidmət dairəsinin genişləndirilməsi, əslində elə sosial sifarişlərdən və sosial tələblərdən irəli gəlir;
- hər bir vətəndaşın harada yaşamasından asılı olmayaraq, o cümlədən ucqar dağlıq ərazidə məskunlaşdıgı təqdirdə belə, sosial infrastruktur xidmətlərindən istifadə etmək hüququ vardır və

dövlətin bu sahəni tənzimləməsi, inkişafının sürətləndirməsi vacib şərtlərdəndir;

– regionlarda sosial infrastrukturun inkişafı ilə bağlı və onun sürətləndirilməsini şərtləndirən amillərin nəzərə alınması üzrə dövlət tənzimlənməsi və təkmilləşdirilməsi mexanizmlərinin regional reallıqlar, xüsusiyyətlər, təsiredici amillər əsas götürülməklə, işlənib hazırlanması, həyata keçirilməsi aktuallığı ilə diqqət mərkəzində saxlanılmılıdır və s.

**11. Regional sosial infrastruktur sahələrinin hüquqi bazası.** Sosial infrastuktur normativlərinin yüksək ictimai əhəmiyyətə malik olması, onların işlənib hazırlanmasında bir daha böyük məsuliyyət tələb edir. Məhz buna görə də, sosial infrastuktur norma və normativlərinin işlənib hazırlanması əsaslandırılmış və səmərəli metodologiyaya söykənməlidir.

Funksional təyinatından, xüsusiyyətlərindən asılı olaraq sosial infrastuktur normativlərini təsnifləşdirmək və qruplaşdırmaq olar. Bunlar barədə iqtisadçı alimlər arasında da müxtəlif fikir ayrılıqları vardır. Belə ki, bir qrup iqtisadçılar sosial infrastuktur normativlərini müəyyənləşdirərkən sosial qruplar üzrə (fəhlələr, kəndlilər, qulluqçular) təsnifata üstünlük verirlər. Problemə əhalinin sosial-qrupları üzrə yanaşılması ayrı-ayrı sosial qrupların spesifik tələblərinin öyrənilməsinə imkan verir. Lakin belə yanaşmada ailədə və cəmiyyətdə tələbatların ödənilməsinin bir çox tərəfləri -ailə büdcəsinin formalaşması, onun xərclənməsi, mədəni-məişət xarakterli obyektlərlə, mənzil sahəsi və kommunal-təsərrüfat xidmətləri ilə təmin edilməsi, ictimai istehlak fondundan, ümumilikdə və ayrılıqda istifadə və s. tərəfləri tam nəzərə almaq mümkün olmur. Digər qrup iqtisadçılar isə, sosial infrastuktur normativlərinin təsnifləşdirilməsini sosial fəaliyyətin istiqamətləri üzrə aparmaqla, aztəminatlı əhalinin vəziyyətinin yaxşılaşdırılması, şəxsiyyətin hərtərəfli inkişafı, maddi nemətlərə və xidmətlərə olan tələbatların ödənilməsi, mənzil problemlərinin həll edilməsi və s. nəzərdə tuturlar. Bu variantda da əvvəlki çatışmazlıqların bir hissəsi aradan qaldırılsa da, eyni zamanda bir çox müsbət tərəflər də itirilmiş olur. Beləliklə, üçüncü qrup iqtisadçıların təklifləri, sosial infrastuktur normativlərinin mahiyyətinə daha çox uyğun gəlir. Xüsusilə onun əhalinin sosial problemlərinin optimal həlli istiqamətlərinə uyğunluğu iddiası diqqət çəkir və bu halda normativlərin11 blok üzrə qruplaşdırılması təklif edilir:

– əhalinin gəlir və xərcləri;

– əhalinin sosial təminatı;
– əhali demoqrafıyası;
– pullu xərclər;
– əhalinin mənzil-kommunal təminatı;
– ticarətin, ictimai iaşənin və xidmət sahələrinin inkişafı;
– nəqliyyat və rabitə;
– əhalinin sağlamlığının mühafizəsi;
– iş və işdənkənar asudə vaxtın təşkili;
– iş, əmək şəraiti və əməyin təşkili;
– ətraf mühitin vəziyyəti və mühafızəsi və s.

Bu qeyd olunan normativlər əhalinin həyat səviyyəsinin yüksəldilməsi üzrə tədbirlərin əsaslandırılması, onun regionlararası tarazlaşdırılması və bu regionların inkişafına zəruri olan vəsait və investisiyaların öyrənilməsi, müxtəlif əmtəə və xidmətlərin istehsal miqyasının müəyyən edilməsində əsas baza kimi istifadə edilə bilər.

Müasir bazar iqtisadiyyatı şəraitində ölkədə sosial infrastruktur sahələrində informasiya və normativ baza elementlərinin aşağıdakı əsas istiqamətdə təkmilləşdirilməsi məqsədəuyğun hesab edilə bilər:

– mülkiyyət formasından asılı olmayaraq sosial infrastruktur sahələrində həyata keçiriləcək işlərin əsasən müvafiq dövlət orqanları tərəfındən təsdiq edilmiş hüquqi normativ aktlar əsasında reallaşdırılması daha müsbət nəticələr verə bilər;
– müəssisə, firma və təşkilatlarda sosial inkişafın strateji planlaşdırılmasının həyata keçirməsinə diqqətin artırılması vacib şərtlərdəndir;
– sosial infrastruktur sferasında çalışan insanların iş və əmək şəraitinin getdikcə yaxşılaşdırılması və asudə vaxtın səmərəli təşkilinin yeni yüksək standartlar səviyyəsinə qaldırılması dövrün tələbi kimi çıxış edir;
– sosial infrastruktur sahələrində normativlərin və hüquqi tənzimlənmənin təkmilləşdirilməsi və beynəlxalq dünya standartlarına uyğunlaşdırılması zəruriliyi ilə diqqət çəkir və s.

Qeyd etmək lazımdır ki, yaxın perspektivdə ölkə regionlarında görüləcək iri miqyaslı tədbirlər, o cümlədən, sosial infrastruktur obyekt-lərinin istifadəyə verilməsi mexanzimləri və qanunvericilik bazası əsasən Azərbaycan Respublikasi regionlarinin 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramında öz əksini tapmışdır. Proqramın reallaşdırılması ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb

etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayacaqdır.

Regional sosial infrastruktur sahələrinin hüquqi bazasının gücləndirilməsi məsələlərini və yuxarıda qeyd olunanları ümumiləşdirməyə çalışsaq, bir sıra mülahizələr diqqəti cəlb edir:

- sosial infrastruktur sahələrinin kompleks inkişafı və regional inkişaf prioritetləri daimi yeni yanaşmaları, tənzimlənmə mexanizmlərini şərtləndirir;
- sosial infrastruktur sahəsinin müasir inkişaf prioritetləri nə qədər güclü hüquqi baza ilə əhatə olunsa belə, sosial-iqtisadi inkişafın dinamikasına adekvat yeni mexanzimlərin hazırlanması üçün qanunvericiliyin təkmilləşdirilməsi lazım gəlir;
- regionlarda sosial infrastruktur şəbəkəsinin maddi-texniki bazasının dünya standartları səviyyəsinə qaldırılması üçün, ayrı-ayrı sosial infrastruktur sahələrinin spesifik xüsusiyyətləri, mühüm cəhətləri, yerli amilləri nəzərə alınmaqla, qanunvericilik aktlarının işlənib hazırlanması və qəbulu vacib zərurət olaraq qalır və s.

Dissertasiya işinin **"Nəticə və təkliflər"** hissəsində sosial infrastrukturun nəzəri və metodoloji əsaslarının tədqiq edilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində sosial infrastrukturun rolunun və əhəmiyyətinin öyrənilməsi, bu sahənin resurs potensialının qiymətləndirilməsi, ölkə regionlarında mövcud sosial infrastruktur sahələrinin təhlili və problemlərinin araşdırılması nəticəsində onun tənzinlənməsinin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli təklif və tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatınn əsas məzmunu və nəticələri müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Sosialist əhali sakinliyi qanununun regional şəraitdə fəaliyyəti və istifadəsinin xüsusiyyətləri (Azərbaycan SSR-nin materialları əsasında). Azərbaycan SSR EA-nın Xəbərləri, İqtisadiyyat seriyası, (rus dilində), Bakı-1988, №2, s.41-46. - (0.5 ç.v.).
2. Sosialist əhali-sakinliyi qanununun regional xüsusiyyətləri və iqtisadiyyatın planlı inkişafında ondan istifadə:Azərbaycan EA-nın gənc alimlərinin "Böyük oktyabr və müasirlik: cəmiyyətşünaslığın

aktual problemləri" mövzusunda konfransın materialları (rus dilində) Bakı-Elm, 1988, s. 106-107. – (0.1 ç.v.).

3. Məşğulluq siyasəti dövlət siyasətinin tərkib hissəsi kimi: Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun məqalələr toplusu, II (X) Buraxılış, Bakı-Elm, 2002, s. 184-187. – (0.2 ç.v.).
4. Sahibkarlığın müdafiəsi məşğulluq siyasətinin istiqaməti kimi. "Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri" mövzusunda elmi-praktik konfransın materialları (rus dilində), Bakı-2003, s.121. – (0.1 ç.v.).
5. Əhalinin məşğulluğu və təkrar istehsalının qarşılıqlı əlaqəsi "Müasir mərhələdə Azərbaycanda demoqrafik inkişafın, məşğulluğun və işsizliyin sosial-iqtisadi problemləri" mövzusunda elmi-praktik konfransın materialları, Bakı-2003, s.278-279. – (0.1 ç.v.).
6. Azərbaycanda bazar münasibətlərinin təşəkkülü illərində məşğulluğun səmərəliliyi.Azərbaycan Milli EA-nın Xəbərləri, Humanitar və ictimai elmləri seriyası-İqtisadiyyat, (rus dilində), Bakı-2003, №1, s.157-161. – (0.4 ç.v.).
7. Demoqraifya və məşğulluq siyasətinin uzlaşdırılmasının nəzəri-metodoloji məsələləri. Azərbaycan Milli EA-nın Xəbərləri. Humanitar və ictimai elmləri seriyası-İqtisadiyyat, Bakı-2005, №1, s.282-288. – (0.4 ç.v.).
8. Əhalinin inkişafı, iş qüvvəsinin təkrar istehsalı və məşğulluq siyasətinin qarşılıqlı əlaqəsinin təhlili. AMEA-nın xəbərləri. Humanitar və ictimai elmləri seriyası-İqtisadiyyat, Bakı - 2006, №3-4, s.279-288. – (0.5 ç.v.).
9. Regional sosial infrastrukturun dövlət tənzimlənməsi problemləri. AMEA-nın İqtisadiyyat İnstitutunun Xəbərləri. İqtisadiyyat seriyası, №4, Bakı, Elm, 2009. s.48-52. – (0.4 ç.v.).
10. Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında əhalinin və məşğulluğun formalaşması. Bakı, "Avropa nəşriyyatı" 2009, 240 s. – (16 ç.v.).
11. Geniş təkrar istehsal proseslərində sosial infrastrukturun rolu və onun tənzimlənməsi. AMEA-nın İqtisadiyyat institutunun elmi əsərləri, №2, Bakı, 2010, s. 15-19. – (0.4 ç.v.).
12. Sosial infrastrukturun normativ və informasiya bazası və onun təkmiləşdirilməsinin əsas istiqamətləri. AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi əsərləri, №4, Bakı-2010, s. 350-355. – (0.5 ç.v.).
13. Qloballaşma şəraitində məşğulluq siyasəti. "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" İqtisadiyyat və Beynəlxalq

münasibətlər- III Beynəlxalq Konqresin materialları (rus dilində). Bakı, 2010, s. 185-188. – (0.4 ç.v.).

14. Regional infrastruktur problemləri və onun dövlət tənzimlənməsi. "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli İnkişaf modelinin formalaşması problemləri" mövzusunda respublika elmi praktiki konfransının materialları. Bakı-2010, s. 455-457. – (0.4 ç.v.).
15. Azərbaycan Respublikasında regionların sosial infrastrukturunun tənzimlənməsi problemləri. Bakı, "Elm" nəşriyyatı, 2010, s.270. – (18 ç.v.).
16. Sosial infrastrukturun kompleks inkişafının tənzimlənməsi. "İpək yolu" Azərbaycan Universitetinin elmi jurnalı. Bakı, 2010, №3, s.70-73. – (0.3 ç.v.).
17. Dövlətin regional iqtisadi siyasəti və onun reallaşmasının əsas istiqamətləri.Azərbaycan Aqrar Elmi jurnalı. Bakı, 2011, №1, s. 3-7. – (0.5 ç.v.).
18. Regionların sosial infrastruktur potensialı və ondan istifadənin tənzimlənməsi problemləri.AMEA-nın İqtisadiyyat institunun Elmi əsərlər jurnalı. Bakı, 2011, №1, s.242-247. – (0.5 ç.v.).
19. Regional sosial infrastrukturun formalaşması və xüsusiyyətləri. "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı problemləri inkişaf meylləri" mövzusunda Respublika elmi praktiki konfransın materialları, Bakı - 2011,s.244-246. - (0.3 ç.v.).
20. Təhsildə informasiya və innovasiya problemləri. "Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı" Beynəlxalq elmi-praktiki konfransın materialları. 31 mart 2011-ci il, Bakı. s. 351-354. – (0.4 ç.v.).
21. Davamlı iqtisadi inkişafda sosial infrastrukturun rolu və əhəmiyyəti. "Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri" mövzusunda beynəlxalq konfransın materialları. Bakı, Azərbaycan Universiteti, 4-5 may 2011-ci il, s. 129-131. – (0.2 ç.v.).
22. Ресурсный потенциал социальной инфраструктуры и ее прогнозирование. «Системный анализ и прогнозирование экономики» Сборник научных статей 6-й международный научной конфренции. 26-28 мая 2011 г. Минск 2011, с. 236-241. – (0.5 ç.v.).
23. Ресурсный потенциал инфраструктуры в Азербайджане и проблемы его регулирования. Журнал «Вопросы Экономики и Права», Москва, 2011, №3, с. 69-72. – (0.4 ç.v.).

24. Региональное развитие и проблемы усовершенствования социальной инфраструктуры. Журнал «Вопросы экономики и Права», Москва, 2011, №4, с. 191-194. - (0.5 ç.v.).
25. Комплексный подход к решению социальных проблем в регионе. Журнал Экономические Науки. Москва, 2011, №4, с. 106-109. – (0.4 ç.v.).
26. Проблемы урегулирования комплексного развития бытового обслуживания населения в Азербайджане. Журнал «Перспективы Науки», Тамбов, 2011, №6, с. 151-156. – (0.6 ç.v.).
27. Müasir bazar iqtisadiyyatı şəraitində sosial-mədəni-məişət infrastruktur sahələrinin tənzimlənməsi problemləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat elmləri seriyası. Bakı, 2011, №1, s. 74-78. – (0.5 ç.v.).
28. Azərbaycanda təhsil sistemində sosial infrastruktur sahələrinin inkişaf istiqamətləri. AMEA-nın İqtisadiyyat institunun Elmi əsərləri, Bakı - 2011, №2. s. 428-433. – (0.5 ç.v.).
29. Bazar iqtisadiyyatı şəraitində sosial infrastrukturun inkişafı problemləri və onun tənzimlənməsinin əsas istiqamətləri. AMEA-nın Xəbərləri, İqtisadiyyat elmləri seriyası. Bakı 2011, №2, s. 116-122. – (0,6 ç.v.).
30. Regionların sosial-iqtisadi inkişafı ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas amildir. Respublika Elmi-Praktiki Konfransının materialları. Bakı -2011, s. 165-167. – (0.2 ç.v.).
31. Xidmət infrastruktur sahələrinin tənzimlənməsi problemləri. "Aqrar sahə: müstəqilliyın 20 ilində" Respublika Elmi Praktiki Konfransın materialları. Bakı 2011, s. 352-355. – (0.3 ç.v.).
32. İqtisadi inkişafda sosial infrastrukturun rolu və əhəmiyyəti. AMEA-nın İqtisadiyyat institutu. Elmi əsərlər, 2012, №1, s.382-387. – (0.5 ç.v.).
33. Regional sosial infrastruktur sahələrinin inkişaf dinamikası və müasir vəziyyəti. AMEA-nın İqtisadiyyat institutu. Elmi əsərlər, 2012, №2, s.240-246. – (0.5 ç.v.).
34. Regional sosial infrastruktur sahələrinin idarə edilməsi. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası. Bakı-2012, №1, s.170-175. – (0.5 ç.v.).
35. Regional sosial infrastrukturun dövlət tənzimlənməsinin nəzəri əsasları.AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, Bakı-2012, №2, s. 191-196. – (0.6 ç.v.).
36. Azərbaycan Respublikası regionlarında sosial infrastruktur problemləri və onun tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri. "Milli iqtisadiyyatın və səmərəliliyin yüksəldilməsi

problemləri”. Beynəlxalq elmi konfransın materialları. Bakı, 27-28 iyun 2012, s. 394-397. – (0.3 ç.v.).

37. Направления регулирования социальной инфраструктуры в сфере туризма в Азербайджане. «Экономический рост Республики Беларусь: глобализация, инновационность, устойчивость». Сборник научных статей V Международная научно-практическая конференции. 17-18 мая 2012 г. Минск, 2012 - с. 389-391. – (0.2 ç.v.).
38. Основные направления региональной экономической политики. «Экономика, социология и право в современном мире: проблемы и поиски решений». Статьи и Тезисы докладов. 12-я Международная научно-практическая конференция. 30-31 марта 2012 г. Пятигорск, 2012. с.161-168. – (0.6 ç.v.).
39. Направления усовершенствования регулирования региональной социальной инфраструктуры. «Экономика, социология и право в современном мире: проблемы и поиски решений». Статьи и Тезисы докладов.13-я Международная научно-практическая конференция. 9-10 июнь 2012 г. Пятигорск, 2012. с. 146-155. – (1.5 ç.v.).
40. Azərbaycan Respublikası regionlarında sosial infrastruktur problemləri və onun tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası. Gəncə-2012 №3, s. 3-9. – (0.4 ç.v.).
41. Sosial infrastrukturun səmərəliliyinin yüksəldilməsində səhiyyənin inkişafı və rolu. AMEA-nın İqtisadiyyat institutunun elmi əsərləri, №1, Bakı-2013, s.342-348. – (0.4 ç.v.).
42. Важные направления повышения эффективности в сферах социальной инфраструктуры. «Экономика, социология и право в современном мире: проблемы и поиски решений». Статьи и Тезисы докладов. 16-я Международная научно-практическая конференция. 14-15 март. г.Пятигорск - 2013. с. 290-298. – (1.5 ç.v.).
43. Развитие и роль туризма в повышения эффективности социальный инфраструктуры. «Экономический рост республики Беларусь: глобализация, инновационность, устойчивость». Сборник научных статей. V Международная научно-практическая конференции. 15-16 мая 2013 г.,с. 402-404. Минск-2013. – (0.3 ç.v.).
44. Sosial İnfrastrukturun səmərəliliyinin yüksəldilməsində təhsilin inkişafı və rolu. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası. Bakı-2013. № 1. s. 145-150. – (0.5 ç.v.).

45. Sosial infrastrukturun formalaşması və inkişafında mədəniyyət və incəsənətin rolu və əhəmiyyəti. AMEA-nın İqtisadiyyat İnstitutunun Elmi əsərləri, № 4, Bakı-2014. s. 366-371.– (0.5 ç.v.).
46. Azərbaycan regionlarında sosial infrastrukturun tənzimləsinin təkmilləşdirilməsi istiqamətləri və perspektivləri. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası. № 3, Bakı-2014, s.165-174. – (0.6 ç.v.).
47. Perspectives And Development Direction Of Regulation Of The Social Infrastructure In The Regions Of Azerbaijan. by ThomsonReuters. La Pensee, Multidisciplinary journal. Paris, France № 12. Dekabr 2014. page 147-154. – (1.6 ç.v.).
48. Regional sosial infrastruktur sahələrinin hüquqi bazasının gücləndirilməsi məsələləri. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, № 3, Bakı – 2015, səh. 20-28. - (0.8 ç.v.).
49. Regionlarda sosial infrastruktur sahələrinin komoleks inkişafının tənzimlənməsi. AMEA-nın İqtisadiyyat institutunun "Elmi əsərləri" toplusu, № 5, Bakı-2015, səh. 33-39. - (0.6 ç.v.).
50. Regionlarda sosial infrastruktur təkmilləşdirilməsində dövlətin regional siyasətinin əsas mexanizmləri. AMEA-nın İqtisadiyyat institutunun "Elmi əsələri" toplusu, № 6, Bakı-2015, səh. 68-75. - (0.7 ç.v.).
51. Regional sosial infrastruktur inkişafının sürətləndirilməsini şərtləndirən amillər. AMEA-nın iqtisadiyyat institutunun "Elmi əsərləri" № 2, Bakı-2017, səh. 95-103. - (0.8 ç.v.).

**СардаровТахир Алимиран оглы**

# НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

В условиях рыночной экономики и углубления глобализации появилась необходимость в усилении и совершенствовании государственной политики в области социальной инфраструктуры, особенно в регионах страны. С этой целью требуется объективный анализ и оценка существующих возможностей социальной инфраструктуры в регионах и определение в них приоритетных направлений совершенствования социальной инфраструктуры.

Устойчивое развитие страны, безусловно, в немалой степени зависит от решения социально-экономических проблем регионов страны, повышения их экономической активности, обеспечения развитой социальной инфраструктуры и оказания социальных услуг широкого ассортимента. Особо важно создать благоприятные условия для развития человеческих способностей, реализации интеллекта, развития образования, здравоохранения, туризма, объектов общественного питания, бытового обслуживания, культурно-массовых мероприятий и пр. Все эти работы требуют комплексного и системного подхода, совершенствования государственных механизмов по регулированию социальной инфраструктуры в контексте требований современных реалий.

В работе рассмотрены теоретико-методологические вопросы совершенствования социальной инфраструктуры, особенно ее теоретические аспекты в условиях рыночных отношений, роль социальной инфраструктуры в беспрерывном обеспечении процессов воспроизводства, необходимость совершенствования государственного регулирования региональной социальной инфраструктуры, основные механизмы региональной государственной политики в сфере социальной инфраструктуры, их значимость и особенности, опыт мировых стран по проведению государственной политики комплексного развития сфер социальной инфраструктуры и их регулирование, влияние социальной инфраструктуры на

процессы экономического развития регионов. Проанализировано социально-экономическое развитие регионов страны, их ресурсный потенциал и состояние использования, проблемы управления сферами социальной инфраструктуры в регионах, современное состояние системы социальной инфраструктуры в науке и образовании, здравоохранении, туризме и общественно-массовых сферах, обусловлены факторы ускорения развития социальной инфраструктуры в регионах, вопросы усиления правовой базы в сферах региональной социальной инфраструктуры и основные направления совершенствования ее в регионах.

Научная новизна диссертации заключается в том, что сформирован современный научный взгляд на понятия «инфраструктура», «производственная инфраструктура» и «социальная инфраструктура», оценена важность социальной инфраструктуры в беспрерывном обеспечении процессов воспроизводства, обоснована необходимость совершенствования государственного регулирования социальной инфраструктуры, раскрыт потенциал материально-технической базы социальной инфраструктуры в регионах в контексте усиления их развития, аргументирована необходимость уменьшения отсталости сельской местности от городских территорий по размещению, развитию, использованию и уровню социальной инфраструктуры и пр.

В результате проводимых исследований дан ряд выводов, предложений и рекомендаций по теоретико-методологическим основам, совершенствованию механизмов регулирования социальной инфраструктуры в регионах Азербайджанской Республики.

**Sardarov Tahir Alimiran**

## DIRECTIONS OF IMPROVEMENT OF SOCIAL INFRASTRUCTURES IN THE REGIONS OF THE AZERBAIJAN REPUBLIC

### SUMMARY

In the conditions of market economy and the deepening of globalization, there is a need to strengthen and improve state policy in the field of social infrastructure, especially in the regions of the country. With this aim an objective analysis and evaluation of existing social infrastructure in the regions and the determination of priority directions of improvement of social infrastructure are requires.

Sustainable development of the country largely depends on the decision socially-economic problems of the regions of the country, increasing their economic activity, provision of social infrastructure development and the provision of social services wide range. It is especially important to create favourable conditions for the development of human abilities, the realization of intelligence, development of education, health, tourism, public catering, consumer services, cultural events, etc. All these works require a comprehensive and systematic approach improving national mechanisms for the regulation of social infrastructure in the context of contemporary realities.

The theoretical and methodological issues of improvement of social infrastructure, especially its theoretical aspects in conditions of market relations, the role of social infrastructure in continuous processes of reproduction, the need to improve state regulation of regional social infrastructure, basic mechanisms of regional state policy in the sphere of social infrastructure, their importance and characteristics, the experience of the world countries on implementing the state policy of integrated development of social infrastructure areas and their regulation, the impact of social infrastructure on the economic development of the regions are considered in the article.Socio-economic development of regions of the country, their resource potential and status of use, the problems of management of social infrastructure in the regions, the current state of social infrastructure in science and education, health, tourism and public areas due to factors accelerate the development of

social infrastructure in the regions, strengthening legal frameworks in the areas of regional social infrastructure and basic directions of perfection in the regions are analyzed too.

Scientific novelty of the article lies in modern scientific view of the concept of "infrastructure", "infrastructure" and "social infrastructure", estimated the importance of social infrastructure in continuous processes of reproduction, the necessity of improving the state regulation of social infrastructure, revealed the potential of material and technical base of social infrastructure in the regions in the context of enhancing their development, the necessity of reducing the backwardness of rural areas from urban areas for the placement, development, use and level of social infrastructure, etc.

As a result of research a number of conclusions, proposals and recommendations on the theoretical and methodological fundamentals, improve the regulation of social infrastructure in the regions of the Azerbaijan Republic are given.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**ТАХИР АЛИМИРАН оглы САРДАРОВ**

# НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**5308.01 – Общая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора экономических наук**

**БАКУ – 2017**